Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

2

MAY
2019-cu il

№ 78 (3976)

Qiyməti
40 qəpik

www.baki-xeber.com

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# "KEŞİKÇİDAĞ"I AZƏRBAYCANLA GÜRCÜSTAN ARASINDA MÜNAQİŞƏ OCAĞINA ÇEVİRMƏK İSTƏYƏNLƏR VAR...

■ səh. 8 ■

## Prezident hər bir Azərbaycan ailəsinə 50 manatlıq ucuz mavi qaz bağışladı - həmişəlik..

■ səh. 4 ■

## Prezident süni qiymət artımına görə məsul vəzifəli şəxslərin məsələsini gündəmə gətirdi

■ səh. 3 ■

## Ermənistanın sürünən problemə çevirdiyi əsirlər məsələsində Lavrovdan Azərbaycana birmənalı dəstək...

■ səh. 6 ■

## Gürcüstan Prezidenti Azərbaycanla sərhəd məsələsini gündəmdən salmır - münasibətləri gərginləşdirmək cəhdi, yoxsa...

■ səh. 7 ■

## Azərbaycanın təklif etdiyi format dünya neft qiymətlərini uğurla tənzimləyir

■ səh. 10 ■

## Mərkəzi Bank 2018-ci ildə mənfəətsiz işləyib?

■ səh. 12 ■

## ÜDM-də sığortanın payına görə Azərbaycan zəif yerdədir...

■ səh. 12 ■

## Son orfoqrafiya lüğətini hazırlayanlar cəmiyyətdən gələn səsləri nə qədər nəzərə aldılar...

■ səh. 13 ■



## Lavrov həmsədr ölkə başçılarının "ərazi bütövlüyü" əsasında Qarabağ həllini təklif etdiklərini təsdiqlədi...

■ səh. 9 ■



## Son müşavirədən sonra bir neçə məlum icra başçısının vurulma ehtimalı reallaşır...

■ səh. 3 ■

## "Azəriqaz"ın özbaşınalıqları barədə cəmiyyətin danışdıqlarına Prezident gözlənilən dəstəyi verdi...

■ səh. 4 ■



## Ermənistan sərhəddə son atışmanı Medvedyevin "üstünə" atdı

■ səh. 6 ■

### "Hər ölkə Azərbaycan kimi inkişaf etmir, hər ölkə inkişafın nəticələrini Azərbaycandakı kimi ictimai rifaha yönəltmir"

■ səh. 5 ■



### Azərbaycanın iqtisadi inkişafı barədə rəqəmlərin Ermənistana böyük zərbə effekti...

■ səh. 5 ■



### Ermənilərin əli müsəlman ölkəsində məscidə də girdi - Tatarıstan...

■ səh. 7 ■



### Azərbaycanın hərəkatçı siyasətçiləri memuar yazmaqdan çəkinir - problemin ilginc səbəbləri...

■ səh. 11 ■



### Dərman zəhərlənmələri artır - çirkli biznes marağı, ya təxribat...

■ səh. 13 ■





## Prezident İlham Əliyev dünya yəhudilərinin nümayəndələrini qəbul etdi

**Prezident İlham Əliyev mayın 1-də Ümumdünya Yəhudi Konqresinin, Avrasiya Yəhudi Konqresinin və Avropa Yəhudilərinin Bakı dini icmasının rəhbərlərinin daxil olduğu nümayəndə heyətini qəbul edib.**

Baki-xeber.com-un president.az saytından əldə etdiyi məlumata görə, Ümumdünya və Avrasiya Yəhudi konqresləri rəhbərlərinin ölkəmizə geniş tərkibdə səfərinin əməkdaşlığın müzakirəsi üçün yaxşı imkan yaratdığını deyən Prezident İlham Əliyev əsrlər boyu ölkəmizdə müxtəlif xalqların, o cümlədən yəhudilərin əminamanlıq şəraitində bir ailə kimi yaşadığını vurğulayaraq, bu gün də Azərbaycanın mədəniyyətlərarası dialoqun uğurla həyata keçirildiyi bir ölkə kimi tanındığını qeyd edib. Dövlət başçısı Azərbaycanın beynəlxalq aləmdə sivilizasiyalararası əlaqələrin təmin edilməsi işinə böyük töhfə verdiyini deyib.

Çıxış edən qonaqlar Prezident İlham Əliyevlə görüşdən məmnunluq hissi keçirdiklərini bildiriblər. Onlar ölkəmizdə gördükləri inkişaf proseslərinin nümayəndə heyətinin üzvlərində dərin təəssürat doğurduğunu qeyd ediblər.

**Söhbət zamanı Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətinə toxunulub, bu tədbirin xalqlararası və mədəniyyətlərarası dialoqa böyük töhfə verdiyi vurğulanıb.**

# Təbii qaz üzrə artırılmış limit necə tətbiq olunacaq... Tarif Şurasından açıqlama...

**Təbii qazdan güzəştli tariflə istifadə limitinin artırılması ilə əlaqədar yaranmış fərq dövlət tərəfindən qarşılanacaq. Bunu "Trend"ə açıqlamasında Tarif (qiymət) Şurasının katibi Ceyhun Nəcəfov deyib.**

C.Nəcəfov bildirib: "Məlumat verildiyi kimi, Azərbaycan Prezidentinin sistemli və davamlı sosial siyasətinin davamı olaraq, növbəti humanist addım atılıb, dövlət başçısının tapşırığına əsasən, Tarif (qiymət) Şurasının 30 aprel tarixində keçirilmiş iclasında əhali üzrə təbii qazın aşağı tariflə illik istehlak həcmi 1700 kubmetrdən 2200 kubmetrədək artırılıb. Artıq bu güzəştdən - yalnız aşağı tariflə qaz istehlakından 1,8 milyondan artıq abonent (7 milyondan çox vətəndaş) yararlanacaq. Beləliklə,



təbii qazı yalnız aşağı tariflə istehlak edən əhali abonentlərinin xüsusi çəkisi 70%-dən 85%-dək artacaq. Təbii qazdan güzəştli tariflə istifadə limitinin artırılması ilə əlaqədar olaraq yaranmış fərq bütünlükdə dövlət tərəfindən qarşılanacaq".

Artırılmış limitin tətbiqinə gəlincə, Şuranın katibi qeyd edib ki, hesablaşma 1 yanvar 2019-cu ildən etibarən istifadə olunan təbii qazın həcminə uyğun olaraq həyata keçiriləcək:

"Misal: tutaq ki, abonent 1 may 2019-cu ilədək 1400 kubmetr qaz istehlak edib. Bu halda abonent ilin sonunadək daha 800 kubmetr təbii qazı aşağı tariflə (1 kubmetr üçün 10 qəpik) istifadə edə biləcək. Abonent bu tarixədək əvvəlki limiti (1700 kubmetri) ötübsə, yeni limitədək olan hissə üçün ödədiyi vəsait hesablaşmalarda nəzərə alınacaq. Əgər abonent il ərzində müəyyən olunmuş yeni limitdən (2200 kubmetr) artıq təbii qaz istifadə edərsə, bu halda hesablaşma yeni limitdən artıq hissə üçün 1 kub mX20 qəpik olmaqla həyata keçiriləcək. Məlumat üçün qeyd edək ki, bir abonentin faktiki orta illik təbii qaz istehlakı 1400 kubmetrdən aşağıdır".

O vurğulayıb ki, atılmış bu humanist addım dövlət başçısının ölkə vətəndaşlarına böyük diqqət və qayğısının daha bir nümunəsidir.

# Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimləri başlayıb



**Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, mayın 1-də "Mustafa Kamal Atatürk-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi başlayıb.**

Müdafiə Nazirliyindən "Trend"ə verilən məlumata görə, təlimin əsas məqsədi qərargahların müştərək planlarının hazırlanması, şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin artırılması və onların birgə əməliyyatları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq, həmçinin təcrübə mübadiləsi həyata keçirməklə iki ölkənin hərbi qulluqçularının qarşılıqlı münasibətlərinin və qarşılıqlı anlaşmasının yüksək səviyyədə saxlanmasıdır.

**Birgə təlimə iki ölkə ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin hava hücumundan müdafiə və zenit-raket bölmələri cəlb edilib.**

Təlim mayın 3-dək davam edəcək.

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

**«Bakı-Xəbər» qəzetini hər səhər evinizdə və iş yerinizdə əldə etməyin ən asan yolu -**

**Abunə!**

Abunə istəyinizdən asılı olaraq 1-12 aylıq müddətə yazılır.

1 aylıq abunə qiyməti - **8 AZN**

3 aylıq abunə qiyməti - **24 AZN**

**Abunə yazılışı aşağıdakı mətbuat yayım şirkətləri vasitəsilə həyata keçirilir:**

**QAYA - telefonlar:** (012) 564-63-45; 564-48-96

**Azərmətbuatyayım:** (012) 441-19-91; 440-27-85; 440-39-83

**Press İnform:** (012) 498-00-80; (055) 315-60-02

# Tramp Venesuelaya hərbi müdaxiləni istisna etmədi...

**ABŞ Venesuelaya hərbi müdaxilə edə bilər. Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, bu barədə ABŞ dövlət katibi Mayk Pompeo açıqlama verib.**

Pompeo hərbi çevriliş cəhdinin uğursuz olduğu Venesuela barədə bu ifadələri işlədib: "Hərbi müdaxilə mümkündür. Əgər lazım olsa ABŞ bunu edəcək. Amma məsələnin sülh yolu ilə həllinə üstünlük veririk".

Pompeo bəyan edib ki, Rusiyaya məxsus zenit-raket kompleksləri ABŞ-a Venesuelada hərbi əməliyyat keçirməyə mane ola bilməz. O qeyd edib ki, söhbət Venesuela ordusunda olan Rusiya istehsalı zenit-raket komplekslərindən gedir: "Əgər ABŞ



Prezidenti Donald Tramp vəziyyətin hərbi yolla həllini seçsə, onda ABŞ hərbçiləri bu qərarı yerinə yetirəcəklər. ABŞ hərbçiləri Trampın arzuladığı nəticəni əldə edəcəklər".

Qeyd edək ki, aprelin 30-da Venesuelada hərbi çevrilişə cəhd olub.

**Aydın Quliyev Azərbaycan Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini Vüqar Əliyevə anası Şövkət xanımın vəfatı ilə əlaqədar üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir və dərin hüznlə başsağlığı verir.**

**Allah rəhmət eləsin!**

# Son müşavirədən sonra bir neçə məlum icra başçısının vurulma ehtimalı reallaşır...

***Məhərrəm Zülfüqarlı:** "Sözügedən tələblərə əməl etməyən icra başçıları vəzifələrini itirəcəklər"*

"Müvafiq icra orqanlarının rəhbərlərinə və məsul şəxslərə göstəriş verildi ki, onlar daim vətəndaşların problemləri ilə məşğul olmalıdırlar". Bu fikirləri Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib.

Ölkə başçısının sözlərinə görə, Azərbaycan vətəndaşları əmin ola bilərlər ki, ən ağır məqamlarda dövlət onların yanındadır. Prezident bildirib ki, dövlət orqanları, mərkəzi və yerli icra orqanlarının nümayəndələri daim vətəndaşlara qayğı, diqqət göstərməlidirlər, daim vətəndaşların yanında olmalıdırlar: "Müvafiq icra orqanlarının rəhbərlərinə və məsul şəxslərə göstəriş verildi ki, onlar daim vətəndaşların problemləri ilə məşğul olmalıdırlar. İcra başçıları qəsəbələrdə, kəndlərdə olmalıdırlar, vətəndaşların problemlərini eşitməlidirlər, onlara biganə qalmamalıdırlar, onlara şərait yaratmalıdırlar, onlara dəstək olmalıdırlar, kömək göstərməlidirlər. Bu sahədə çox ciddi islahatlar aparılır və aparılacaq".

Ölkə başçısı onu da qeyd edib ki, ümumiyyətlə, idarəetmə sahəsində islahatların aparılmasına böyük ehtiyac var: "Mən bunu demişəm, bu gün də, əvvəlki çıxışlarda da. Hər bir sahədə inkişaf üçün böyük meydan var. Hər bir sahədə, əgər o sahəyə rəhbərlik edən insanlar öz işinə vicdanla yanaşarlarsa, mütləq nəticə də olacaq. Bu, ictimaiyyət tərəfindən də mütləq yüksək qiymətləndiriləcək".

O da məlumdur ki, bu gün bəzi icra başçıları əsasən kabinetdə işləməyə üstünlük verirlər. İctimaiyyətlə birbaşa təmaslardan qaçır, gedib yerindəcə cəmiyyətin üzləşdiyi problemlərlə tanış olmur və ya buna həvəs göstərmirlər. Elə icra başçıları var ki, sanki cəmiyyət içində olmağı özlərinə ar bilirlər. İş gününün böyük hissəsini kabinetdə keçirirlər. O baxımdan, Prezidentin göstərdiyi tələblərə uyuşmayan icra başçılarının vurulma ehtimalı nə qədərdir?

Məsələyə münasibət bildirən İctimai Problemlərin Tədqiqi Assosiasiyasının rəhbəri Məhərrəm Zülfüqarlının sözlərinə görə, bundan sonra sözügedən tələblərə əməl etməyən icra başçılarının vəzifədən azad edilməsi ehtimalı yüksəkdir: "Hesab eirəm ki, sözügedən tələblərə əməl etməyən icra başçıları vəzifələrini itirəcəklər. Çünki cəmiyyət inkişaf etdikcə, dəyişikliklər labüddür. Köhnə sovet sistemi ilə rayonu idarə edən icra başçılarından xilas olmağın çoxdan vaxtı çatıb. Ona görə də cəmiyyətdə öz savadı, təcrübəsi və qabiliyyəti ilə hörmət qazanan insanları rayonlara icra başçısı təyin etmək lazımdır. Yalnız bu keyfiyyətə malik olan şəxslər gedib problemlərlə yerindəcə tanış olar, ictimaiyyətlə təmas qurar, rayonlara sərmayə cəlb edər, işsizlik probleminin həlli ilə bağlı çalışar və s. Belə keyfiyyətə malik olan şəxslər öz şəxsi mənafeyinə görə hər şeyi inhisara almaz. Bir məqamı unutmaq olmaz ki, ölkə başçısı daha çox məlumata malikdir. Ona görə ki, ölkə başçısına bir yox, bir neçə yerdən məlumat daxil olur. Rəsmi məlumatlarla yanaşı, qeyri-rəsmi məlumatlar da yığılır. Təkcə rəsmi məlumatların ümidinə qalsa, icra başçıları raport verərlər ki, hər şey yaxşıdır. Ona görə də Prezident bunları bildiyinə görə yəqin ki, yaxın gələcəkdə islahatların bir tərəfi yerli icra orqanları ilə bağlı olacaq. Ən nəhayət, hesab edirəm ki, bu, icra başçılarına edilən sonuncu xəbərdarlıqdır". Hansı icra başçısı bundan nəticə çıxaracaqsa, postunu qoruyacaq, nəticə çıxarmayanlar isə vəzifəsi ilə vidalaşacaqlar".



*"Hesab edirəm ki, bu onlara edilən sonuncu xəbərdarlıqdır"*

***Vidadi ORDAHALLI***



# Prezident süni qiymət artımına görə məsul vəzifəli şəxslərin məsələsini gündəmə gətirdi...

*"Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində dövriyyəyə 2 milyarddan çox nağd vəsait daxil olub, təəssüf ki, bəzi işbazlar bu vəziyyətdən istifadə etmək istəyirlər"*

***Pərviz Heydərov:** "İstehlak qiymətlərinin nəzarətdə saxlanması funksiyasını İqtisadiyyat Nazirliyi həyata keçirir"*

**"İstehlak qiymətlərinə daim nəzarət olmalıdır, süni qiymət artımına qətiyyən yol verilməməlidir". Bunu Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında yekun nitqində deyib.**

Prezident bildirib ki, ölkəmizdə makroiqtisadi vəziyyət sabitdir: "Mən qeyd etdim, inflyasiya aşağı səviyyədədir - 2 faizdən bir qədər çoxdur. Manatın məzənnəsi sabitdir. Belə olan halda, əlbəttə ki, süni qiymət artımına yol verməkə qətiyyən olmaz. Bəzi hallarda bəzi məhsulların qiymətlərində artım olur. Bunun heç bir əsası yoxdur. Bəzi hallarda mövsümi xarakter daşıyır. Amma bəzi hallarda qiymətlər süni şəkildə artırılır".

İlham Əliyev qeyd edib ki, indi ölkə iqtisadiyyatında canlanma var. İnsanların alıcılıq qabiliyyəti artır: "Biz bunu indi statistik göstəricilərdən görürük. İndi istehlak bazarına nəzarət edən qurumlar bunu görür. Maaşlar, müavinətlər artır, problemli kreditlərlə bağlı ödənişlər başlayıb. Ancaq biz imkan verə bilmərik ki, bundan hansısa natəmiz adamlar, möhtəkirlər istifadə etsinlər, qiymətləri süni şəkildə qaldırsınlar, yaxud da ki, hansısa bir inhisarçılıqla məşğul olsunlar. Ona görə istehlak qiymətlərinə daim nəzarət olmalıdır. Süni qiymət artımına qətiyyən yol verilməməlidir. Müvafiq qurumlar bu işlərlə çox ciddi məşğul olmalıdırlar".

Maraqlıdır, istehlak qiymətlərinin nəzarətdə saxlanması barədə Prezidentin göstərişinin layiqli icrası üçün məsuliyyəti hansı qurum daşıyacaq?

**İqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, son illər əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çoxlu sayda layihə həyata keçirilir.** Görülən işlər nəticəsində əhalinin gəliri müəyyən dərəcədə artıb. Belə olan halda, dövriyyəyə 2 milyarddan çox nağd vəsait daxil olub: "Ancaq bu vəziyyət daha çox gəlir əldə etmək istəyən sahibkarlara imkan verməməlidir ki, onlar süni şəkildə qiyməti qaldırsınlar. İstehlak məhsullarının qiymətinə xüsusi nəzarət tətbiq olunmalıdır".

P.Heydərov onu da vurğuladı ki, son 3-4 il ərzində istehlak bazarında süni qiymət artımı çox qeydə alınmır. Bunun da səbəbi aidiyyəti qurumların istehlak qiymətlərinə xüsusi nəzarət tətbiq etməsidir.

**Həmsöhbətimiz onu da vurğuladı ki, bir müddət əvvəl iqtisadiyyat naziri Şahin Mustafayev mətbuata açıqlamasında bildirmişdi ki, süni qiymət artımına yol verməmək üçün istehlak bazarında istehlak qiymətinin formalaşması dövlət nəzarətindədir: "Nazir çıxışı zamanı qeyd etmişdi ki, istehlak bazarına ciddi nəzarət tətbiq olunur və həmin nəzarət nəticəsində ölkədə süni qiymət artımının baş verməsi üçün heç bir zəmin yoxdur. Bu məsələyə ölkə başçısı İlham Əliyev də aprelin 30-da toxundu.**

İstehlak qiymətlərinin nəzarətdə saxlanması funksiyasını İqtisadiyyat Nazirliyi həyata keçirir".

***Günel CƏLİLOVA***

# "Azəriqaz"ın özbaşınalıqları barədə cəmiyyətin danışdıqlarına Prezident gözlənilən dəstəyi verdi...

**Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında "Azəriqaz"ın fəaliyyətini sərt tənqid edib.**

Dövlət başçısı bu barədə ona məlumat verildiyini deyib: "Mənə məlumat verilir ki, "Azəriqaz" özü birtərəfli olaraq hansısa qaydalar tətbiq edir və bəzi hallarda insanlara problemlər yaradır. Buna son qoyulmalıdır və burada maksimum şəffaflıq, ədalət olmalıdır. Çünki yerlərdən belə siqnallar gəlir ki, həm sayğaclarla, həm qazın keyfiyyəti ilə bağlı problemlər var, bunlar tamamilə aradan qaldırılmalıdır. Bütün sahələrdə - elektrik enerjisi, içməli su, təbii qazın verilməsi ilə bağlı maksimum şəffaflıq və ədalət olmalıdır".

Çox maraqlıdır, "Azəriqaz" hansı problemləri yaradır ki, bu hətta ölkə başçısı səviyyəsində tənqidə məruz qalıb?

**Əmək Hüquqlarını Müdafiə Liqasının sədri Sahib Məmmədov da bu qənaətdədir ki, "Azəriqaz"ın fəaliyyətində ciddi nöqsanlar var.** Onun sözlərinə görə, cənab Prezident "Azəriqaz"ı haqlı olaraq tənqid edib: "Onları özlərindən qaydalar müəyyən etməkdə suçladı. Tam doğru. "Azəriqaz" bütün qaydaları kobud surətdə pozaraq smart sayğaclarda limiti qaza yox, depozitə qoyulan pula tətbiq edir. Nəticədə yüz minlərlə insanın cibinə girirlər. "Azərişıq" limiti işlənən enerjiyə tətbiq etdiyi halda, "Azəriqaz" öz anbarında olan qaza görə əhaliyə limit qoyur. Halbuki, mən ödənişi sayğacımdan keçən qaza etməliyəm. Verdiyim pullar isə sadəcə depozitdir. Bu tərtəmiz oğurluqdur. Bu oğurluğa tezliklə son qoyulmalıdır".

Sosial məsələlər üzrə ekspert İlqar Hüseynli qəzetimizə bildirdi ki, əslində, Prezidentin bu məsələyə münasibət bildirməsi həmin qurumun səhlənkar fəaliyyətinin göstəricisidir: "Biz sizinlə dəfələrlə sosial məsələləri müzakirə edəndə bildirmişik ki, əslində, bütün qurumlar normal çalışsa, Prezident belə xırda məsələlərə vaxt ayırmağa məcbur olmaz. "Azəriqaz"ın normal fəaliyyət göstərməməsilə bağlı ciddi iradları biz daim ictimai müzakirələrdə eşitmişik. Görünür, bu şikayətlərin həcmi o qədər böyüyüb ki, gedib Prezident səviyyəsinə çıxıb. Ən böyük narazılıq limitlə bağlıdır.




***Sahib Məmmədov:** "... yüz minlərlə insanın cibinə girirlər"*

***İlqar Hüseynli:** "Prezidentin bu məsələyə münasibət bildirməsi həmin qurumun səhlənkar fəaliyyətinin göstəricisidir"*

Burda çox ciddi şəkildə yeyintilərə yol verilir. İl dəyişəndə bir neçə gün ərzində aralıq müddət qəsdən yaradılır ki, həmin dönəmdə sərfiyyat köhnə limitlə hesablansın. Bunun da nəticəsində külli miqdarda vəsait mənimsənilir, nəticə etibarilə vətəndaşların cibinə girilir. Sayğacların yenilənməsi ilə bağlı vəziyyət isə çox bərbad haldadır. Bəzən sayğaca müdaxilə adı ilə vətəndaşların üzərinə əsası olmayan külli miqdarda borclar yazırlar. Tez-tez təbii qazın verilişi dayandırılır. Təkrar veriləndə bir neçə dəqiqə ərzində qaz əvəzinə hava gəlir ki, bu da vətəndaşın üzərinə qaz sərfiyyatı kimi yazılır. Qurumun qəza xidməti yaxşı işləmir. Bəzən qəzanın aradan qaldırılması ilə bağlı vətəndaşlar saatlarla qurumun "qaynar xətt"inə düşə bilmirlər. Hesab edirəm ki, yaranmış vəziyyətə görə Tarif Şurası da yaxasını kənara çəkməməlidir. Nəyə görə bu cür limiti təsdiq etdilər ki, sonra Prezidentin yaranmış narazılıq fonunda məsələyə müdaxiləsinə zərurət yarandı? Bəyəm onlar bilmirdilər ki, limit hətta ən kasıb ailələri belə görməyəcək?

"Azəriqaz" hazırda vətəndaşların ən çox narazı qaldığı qurumlardan biridir. Biz dəfələrlə şahidi olmuşuq ki, "Azəriqaz"ın fırıldaqları ilə bağlı hətta ölkənin tanınmış şəxsləri belə münasibət bildiriblər. Mənə elə gəlir ki, qurum indiyə qədər olan narazılıqlarla da bağlı məsuliyyət daşımalı və bunu yaradanlar ciddi cəzasını almalıdırlar".

***Məhəmmədəli QƏRİBLİ***

---

**Məlum olduğu kimi, Azərbaycanda qaz limiti artırılıb. Dövlət başçısının tapşırığına əsasən, əhali üzrə təbii qazın aşağı tariflə illik istehlak həcmi 1700 kubmetrdən 2200 kubmetrədək artırılıb. Yeni qərara əsasən, dünəndən 1,8 milyondan artıq abonent (7 milyondan çox vətəndaş) qaz istehlakından aşağı tariflə yararlanmaq imkanı əldə edib. Məlumat üçün qeyd edək ki, bir abonentin faktiki orta illik təbii qaz istehlakı 1400 kubmetrdən aşağıdır.**

***Vahid Əhmədov:** "Qazın limitinin 1700 kubmetr həddində olması bəzən vətəndaşlar, xüsusilə nisbətən imkansız təbəqədən olanlar və həyət evlərində yaşayanlar üçün çətinlik yaradırdı"*

***Aydın Mirzəzadə:** "Sosial problemlərin həlli Azərbaycan iqtidarının fəaliyyətinin əsasını təşkil edir"*

# Prezident hər bir Azərbaycan ailəsinə 50 manatlıq ucuz mavi qaz bağışladı - həmişəlik..

Qazın limitinin 1700 kubmetrdən 2200 kubmetrə qaldırılmasını, kimliyindən asılı olmayaraq, hər kəs müsbət qarşılayır.

**Millət vəkili Vahid Əhmədov qeyd etdi ki, qazın limitinin qaldırılması müsbət və əhəmiyyətli addımdır:** "Bu, son aylar daha da geniş vüsət alan islahatlar siyasətinin tərkib hissəsidir. Qazın limitinin 1700 kubmetr həddində olması bəzən vətəndaşlar, xüsusilə nisbətən imkansız təbəqədən olanlar və həyət evlərində yaşayanlar üçün çətinlik yaradırdı. Məlumdur ki, limit 1700-lük həddi keçəndən sonra qiymət, tarif dəyişirdi və bu da insanların güzəranına, yaşayışına, maddi durumuna ciddi təsir edirdi.

İnsanlar bundan əziyyət çəkirdilər. Bu məsələ ilə bağlı tez-tez vətəndaşlar tərəfindən bizə, millət vəkillərinə də müraciət olunurdu. Qazın limitinin qaldırılması yaxşı haldır. Sevindirici haldır ki, bizim səsimiz eşidildi, hər kəsi narahat edən məsələyə əl qoyuldu".

**Millət vəkili Aydın Mirzəzadə bildirdi ki, qazın limitinin artırılması ilə bağlı dövlət başçısının qərarı bir daha göstərdi ki, dövlət daim vətəndaşın yanındadır:**




"Məlumdur ki, insanlar kommunal ödənişi etməkdə çətinlik çəkirdilər. Bu problem vaxtaşırı həm mediada, həm də parlamentdə müzakirə olunurdu. Sevindirici haldır ki, qazın limiti 1700-dən 2200 kubmetrə qaldırıldı. Bu hal bir daha göstərdi ki, qaldırılan hər hansı bir məsələ diqqətdən kənarda qalmır".

Millət vəkili onu da vurğuladı ki, əhalinin sosial vəziyyətinin yaxşılaşması ilə bağlı qazın limitinin qaldırılması sonuncu qərar deyil. Bu kimi qərarların sayı çox olacaq: "Nazirlərin Prezident qarşısında qaldırdığı məsələlər bir daha göstərir ki, sosial problemlərin həlli Azərbaycan iqtidarının fəaliyyətinin əsasını təşkil edir".

***Günel CƏLİLOVA***

# Aydın Quliyev: "Hər ölkə Azərbaycan kimi inkişaf etmir, hər ölkə inkişafın nəticələrini Azərbaycandakı kimi ictimai rifaha yönəltmir"

**Aprelin 30-da Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası dövlətimizin müxtəlif sahələr üzrə yürütdüyü siyasətin cari yekunlarını xalqa və dünya birliyinə təqdim etmək baxımından əhəmiyyətlidir və tarixi hadisədir.**



Bunu "Trend"-ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

Baş redaktor bildirib ki, əslində iclasda səsləndirilən fakt və rəqəmlər Azərbaycan ictimaiyyəti və obyektiv dünya müşahidəçiləri üçün təəccüblü və gözlənilməz deyil: "Bu, Azərbaycanın daxilində və xaricində fəaliyyət göstərən maraqlı dairələr üçün inkişaf strategiyasının real və elmi-nəzəri cəhətdən əsaslandırılmış olduğu illərdən bəri görünən və müşahidə edilən mənzərədir. İclasda bildirilən fikir və aparılan təhlillər ötən ilin aprelində prezident seçkilərindən sonra Prezident İlham Əliyevin iki əsas vədinin tam şəkildə doğrulduğunu sübut etmək baxımından daha maraqlıdır. Dövlət başçısı seçkilərdən sonra yeni iqtisadi modelə keçid ediləcəyini və aparılan islahatların 2019-cu ildə daha böyük nəticələr verəcəyini inamla söyləmişdi. İclasda təsdiqləndi ki, bu ilin ilk üç ayı bütün sosial-iqtisadi sahələrdə nəzərəçarpan nəticələr verib və bu uğurlar birmənalı olaraq 2018-ci ildən həyata keçirilən yeni islahatlar siyasətinin nəticəsi kimi meydana çıxıb".

**Onun sözlərinə görə, Nazirlər Kabinetinin iclasının əhəmiyyətli göstəricilərindən biri də odur ki, ölkəmizin sosial, iqtisadi, humanitar və mədəni inkişaf proseslərinin bir-birinə sinxron qaydada tam uyğun getdiyini, sahələrdən birinin digərindən geridə qalmadığını, inkişaf üçün kənar qüvvələrə qətiyyən ehtiyac olmadığını və dinamik inkişaf üçün kifayət qədər daxili gücə, hərəkətverici mənbələrə malik olduğunu ortaya qoydu:**

"İqtisadiyyata 2,5 milyard manatdan çox investisiya yatırılması, əsas istehsal və xalqa xidmət sferalarında böyük artımı sübut edən digər rəqəmlər həqiqətən Azərbaycanın böyük inkişaf potensialına malik olduğunu və aparılan ağıllı siyasətin sayəsində potensialların fasiləsiz surətdə real gücə çevrildiyini nümayiş etdirir. Azərbaycan qədər inkişaf edən ikinci ölkənin olmadığını bildirən Prezident bununla həm Azərbaycanın əldə etdiyi hərtərəfli nəticələrə, həm kifayət qədər daxili güc mənbələrinə malik olduğumuza, həm də islahatlar və iqtisadi inkişaf strategiyasının çox dəqiq seçildiyinə əsaslandı. Azərbaycanda islahatların alternativi olmadığını deyən dövlət başçısının real və əsaslı mövqedən çıxış etdiyini sadə məntiqlə aydın izah etmək mümkündür. İslahatlarsız Azərbaycan beynəlxalq nəqliyyat və logistika layihələrinin icrasında əvəzsiz rol oynayan ölkəyə çevrilə, sosial müdafiəyə yüz milyonlarla vəsait ayıra bilməzdi".

**Ekspert qeyd edib ki, Prezident İlham Əliyev iclasda bir neçə sahə üzrə yeni modellərə keçid ediləcəyi barədə qəti mövqeyini də açıqladı:** "Bu modellərin mahiyyətinə görə böyük maliyyə tutumuna malik olduğunu nəzərə alsaq, məlum olur ki, Prezident bunların icra ediləcəyinə əmin olmaqla bərabər, həm də Azərbaycanın öz maliyyə ehtiyatlarının dinamik artımına dönməz təminat yarada bildiyini göstərdi. Şübhə yoxdur ki, dünyada bu baxımdan bizimlə müqayisə oluna bilən az sayda ölkə var. Dövlət başçısı hərtərəfli iqtisadi inkişafın əsas hədəfinin insan faktoru ilə bağlı olduğunu dünyaya nümunəvi model kimi təqdim etdi. Hər ölkə Azərbaycan kimi inkişaf etmir, hər ölkə inkişafın nəticələrini Azərbaycandakı kimi ictimai rifaha yönəltmir".

A.Quliyev vurğulayıb ki, Azərbaycan Prezidenti iqtisadi inkişafın vüsəti ilə Dağlıq Qarabağ probleminin həlli prosesini məharətlə əlaqələndirə bildi: "Əslində cənab İlham Əliyev "güclənən iqtisadiyyat - güclənən ordu - güclənən diplomatiya" məntiqini Azərbaycan üçün çox güclü təsir mövqeyi kimi nümayiş etdirdi. Bu mənada dostlar da, düşmənlər də Prezidentin "Qarabağ məsələsində mövqeyimiz dəyişməyib" bəyanatını sürətlə güclənən iqtisadiyyata malik Azərbaycanın dəyişməz mövqeyi kimi qəbul etdi".

**O bildirib ki, Nazirlər Kabinetinin bu iclasının ölkədə ictimai etimadı möhkəmləndirmək baxımından dəyərli olan başqa bir cəhəti də var:** "Prezidentin nitqi bir daha cəmiyyətdə əminlik yaratdı ki, indiyə qədər anonsu verilmiş bütün sosial-iqtisadi layihələr tam icra edildiyi kimi, hazırda təqdim edilmiş layihələr də uğurla həll ediləcək. Ümumilikdə iclas ölkədə xalqın Prezidentə inam və dəstəyini yeni pilləyə yüksəltmək gücünə malikdir".

# Azərbaycanın iqtisadi inkişafı barədə rəqəmlərin Ermənistana böyük zərbə effekti...

## *Əli Orucov: "Azərbaycanın iqtisadi inkişafı Dağlıq Qarabağ münaqişəsinin güc yolu ilə həllinə gətirib çıxara bilər"*

**Məlum olduğu kimi, Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. Sözügedən iclas cari ilin birinci rübünün sosial-iqtisadi inkişafı istiqamətində görülən işlərin nəticələrinin qiymətləndirilməsi baxımından ciddi əhəmiyyət kəsb edir.**



Sosial-iqtisadi sahədə bir-birinin ardınca atılan addımları, o cümlədən, şəhid ailələrinə birdəfəlik ödəmənin verilməsi, minimum əməkhaqqı, pensiya, təqaüd və sosial müavinətlərin artırılmasını islahatların yeni mərhələsi kimi qiymətləndirən dövlət başçısı qarşıdakı dövrdə həlli vacib məsələlərdən danışıb. Belə ki, 3 mühüm sahə - iqtisadiyyat, kənd təsərrüfatı və səhiyyə üzrə yeni sosial-iqtisadi modelə keçidin anonsunu verib.

Müşavirədə birinci rübdə büdcə daxilolmalarının artdığını, bununla da əlavə maliyyə resursunun formalaşdığını deyən dövlət başçısı ilin əvvəlindən ümumdaxili məhsulun, sənaye istehsalının, qeyri-neft sənayesinin, kənd təsərrüfatının, əhalinin gəlirlərinin artdığını, ölkə iqtisadiyyatına 2,8 milyard dollar sərməyə qoyulduğunu deyib. Qeyd edib ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 25-ci yerə layiq görülüb və 10 ən islahatçı ölkə arasındadır.

**Son 15 ildə ölkədə 2 milyon yeni iş yerinin yaradıldığını, əhalinin sayının 10 milyona çatdığını, bunun da qarşıda yeni vəzifələr qoyduğunu deyən Prezident İlham Əliyev bildirib ki, bu il də sosial infrastruktur layihələrinin icrası diqqət mərkəzində saxlanacaq.**

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən bəhs edərkən dövlət başçısı bildirib ki, bu məsələ ilə bağlı Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və münaqişə ölkəmizin ərazi bütövlüyü, suverenliyi çərçivəsində, beynəlxalq hüququn normalarına uyğun həll olunmalıdır.

O baxımdan, müşavirədə Azərbaycanın iqtisadi inkişafı barədə Prezidentin dedikləri Qarabağ problemi ilə bağlı dünyaya hansı mesajları verdi?

*"Hesab edirəm ki, beynəlxalq birlik bu mesajdan ciddi nəticə çıxarmalıdır"*

**Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucov buna bir neçə rakursdan yanaşdı:** "Bunun dünyaya başlıca mesajı ondan ibarətdir ki, Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi Azərbaycanın iqtisadi inkişafını ləngidə bilməyib. Azərbaycan iqtisadiyyatına həm daxili, həm də xarici mənbələrdən sərmayələr yatırılır. Neftdən əldə edilən böyük vəsaitlər iqtisadiyyata yönəldilir. Müxtəlif istehsal və xidmət sahələri yaradılır. Sosial infrastruktur sahələri inkişaf etdirilir. Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun çəkisi aşağı olsa da, hər halda, son illər bu sahənin də inkişafına diqqət artıb. Müxtəlif proqramlar qəbul olunub, layihələr həyata keçirilir. Azərbaycanın iqtisadi göstəricilərində ölkənin tranzit imkanları və bununla əlaqədar reallaşdırılan enerji, nəqliyyat layihələri müsbət perspektivlər vəd edir. Ancaq münaqişənin həll olunmaması səbəbindən Ermənistan bu imkanlardan məhrumdur. Bu ölkəyə sərmayə qoymaqda, transmilli layihələrin həyata keçirilməsində xarici dövlətlər maraqlı deyil. Ermənistanın təcavüzkar siyasət yeritməsi bu ölkənin iqtisadi inkişafını tormozlayır. Ən nəhayət, bu onu özündə ehtiva edir ki, Azərbaycanın iqtisadi inkişafı Dağlıq Qarabağ münaqişəsinin güc yolu ilə həllinə gətirib çıxara bilər. Çünki Azərbaycan sonsuza qədər danışıqlarda Ermənistanın nazı ilə oynamayacaq. Ermənistan məqsədyönlü şəkildə danışıqları uzadır. Hesab edirəm ki, beynəlxalq birlik bu mesajdan ciddi nəticə çıxarmalıdır. Ermənistanın təcavüzkar siyasətinə dur deməlidir. Əvvəl-axır iqtisadi güc öz sözünü deyəcək".

***Vidadi ORDAHALLI***

# Ermənistan sərhəddə son atışmanı Medvedyevin "üstünə" atdı

**Məlum olduğu kimi, 29-30 aprel tarixlərində Qazax rayonu istiqamətində Ermənistanla dövlət sərhədində Dövlət Sərhəd Xidmətinin (DSX) sərhəd döyüş məntəqələri Ermənistan Respublikasının silahlı qüvvələrinin bölmələri tərəfindən bir neçə istiqamətdən günün müxtəlif vaxtlarında iriçaplı silahlardan dəfələrlə davamlı atəşə tutulub.**



## *"Bu, təxribatçı bəyanatdır, həqiqətlə daban-dabana zidd olan dezinformasiyadır"*

***Elman Nəsirov:*** *"Ermənistan ehtiyatlanır ki, Medvedyevin səfəri çərçivəsində Rusiyanın münaqişənin həlli ilə bağlı mövqeyi daha da fəallaşa bilər"*

***Əli Orucov:*** *"Onlar daxili auditoriyanın diqqətini Paşinyandan yayındırmaq üçün Azərbaycana şər atırlar"*

Atəşkəsin Ermənistan silahlı qüvvələri tərəfindən pozulması fakt olduğu halda, Ermənistan tərəfi atəşkəsin pozulmasını Azərbaycanın üzərinə atmaq istəyir və onu siyasi çalarla bağlamağa cəhd edir.

Ermənistanın Müdafiə Nazirliyinin sözçüsü bu ölkənin mətbuatına bildirib ki, guya Azərbaycan tərəfi həmin gün atəşkəsi məqsədli şəkildə pozub. O iddia edib ki, Azərbaycan Rusiyanın Baş naziri Dmitri Medvedyevin Avrasiya İttifaqının tədbiri ilə bağlı İrəvana səfərinə etiraz əlaməti olaraq bu addımı (?) atıb.

Millət vəkili Elman Nəsirov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın bu iddiası təxribatçı davranışın göstəricisidir. "Azərbaycanın qoşunların təmas xəttində atəşkəsin qorunub saxlanması ilə bağlı davranışları bəllidir. Biz atəşkəsə əməl edirik və hər zaman atəşkəsi pozan isə Ermənistan tərəfidir. Dəfələrlə şahidi olmuşuq ki, prezidentlər səviyyəsində görüş ərəfəsində, bəzən görüşlərin getdiyi vaxtda, bir çox hallarda həmin görüşlərdən sonra Ermənistan tərəfindən atəşkəsin pozulması halları baş verib. İndiki halda da Ermənistanın Azərbaycan tərəfi ittiham etməsi ki, guya Azərbaycan Rusiyanın Baş naziri Dmitri Medvedyevin Ermənistana səfəri ilə bağlı Qazax istiqamətində atəşkəsi pozub, bu təxribatçı bəyanatdır, həqiqətlə daban-dabana zidd olan dezinformasiyadır. Məsələ bəllidir. Çünki Ermənistan ehtiyatlanır ki, Medvedyevin səfəri çərçivəsində Rusiyanın münaqişənin həlli ilə bağlı mövqeyi daha da fəallaşa bilər və müəyyən mənada Ermənistana təzyiqlər ola bilər. Bunu önləmək və özlərini sığortalamaq üçün bizi ittiham edirlər, məhz atəşkəsi pozan tərəf isə özləridir. Ona görə də hesab edirəm ki, baş vermiş məlum insidentə və atəşkəsin pozulmasına görə bütün məsuliyyət Ermənistanın ali siyasi və hərbi rəhbərliyinin üzərinə düşür. Biz onların dəfələrlə təxribatçı addımlarının şahidi olmuşuq və nəticə etibarilə belə addımlar atmaqla danışıqları pozmağa cəhd edirlər. Bilirsiniz ki, indi Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşü ilə bağlı müəyyən fikirlər səslənməkdədir. İndidən onlar həmin görüşün baş tutmasına mane olmaq, onun vaxtını uzatmaq, pauza əldə etmək istəyirlər. Bu da Paşinyana hava və su kimi lazımdır ki, üzləşdiyi daxili problemlərin həlli üçün müəyyən mənada vaxt əldə etsin" - deyə E.Nəsirov qeyd etdi.

AMİP təmsilçisi, politoloq Əli Orucov da hesab edir ki, Qazaxda atəşkəsin pozulmasının Azərbaycanın üzərinə atılması ermənilərin növbəti təxribatıdır. Ə.Orucovun sözlərinə görə, fakt budur ki, atəşkəsi həmişə Ermənistan pozur: "Mən çox istərdim ki, Azərbaycan tərəfi daim Ermənistanı atəş altında saxlasın, onların göz açmasına imkan verməsin. Ancaq çox təəssüflər olsun ki, belə deyil. Azərbaycan tərəfi həmişə atəşkəs rejiminə əməl edib. Atəşkəsin pozulması isə həmişə Ermənistan tərəfdən baş verib və bu onların maraqlarına xidmət edib. Bu gün də onlar atəşkəsi pozmaqda davam edirlər. Hesab edirəm ki, xüsusi bir tapşırıqla Ermənistan tərəfi atəşkəsi pozur, sərhəddə gərginlik yaradır. Bilirsiniz ki, Ermənistanın baş naziri Paşinyana qarşı daxildə inam azalır. O, xalqa verdiyi vədlərə əməl etmir və cəmiyyətdə ona qarşı inamsızlıq formalaşıb. Belə bir məqamda təmas xəttində atəşkəsin pozulması Paşinyanın marağındadır. O bununla daxili problemlərdən, gərginlikdən diqqəti yayındırmaq məqsədi güdür. Ona görə də ermənilər qeyri-konstruktiv əməllərini, dağıdıcı, işğalçı niyyətlərini həyata keçiriblər və bunun günahını da hər zaman Azərbaycanın üzərinə atıblar. Amma Azərbaycan əsgərləri də həmişə Ermənistanın bu təxribatına layiqincə cavab veriblər. Bu dəfə də atəşkəsin Ermənistan tərəfindən pozulması onu göstərdi ki, onlar daxili auditoriyanın diqqətini Paşinyandan yayındırmaq üçün Azərbaycana şər atırlar və iddia edirlər ki, guya Azərbaycan Medvedyevin İrəvan səfərinə etiraz əlaməti olaraq atəşkəsi pozub".

***İradə SARIYEVA***

# Ermənistanın sürünən problemə çevirdiyi əsirlər məsələsində Lavrovdan Azərbaycana birmənalı dəstək...

**Rusiyanın xarici işlər naziri Sergey Lavrov münaqişə zonalarında etimadın yaradılması üçün əsirlərin və girovların "hamının hamıya" prinsipi ilə dəyişdirilməsinə dair çağırış edib. Bu barədə Rusiya xarici işlər naziri aprelin 30-da keçirdiyi mətbuat konfransında deyib:**

## ***Əhməd Şahidov:*** *"On beş il ərzində Sergey Lavrov əsir və girovlarla bağlı məsələdə ilk dəfə olaraq belə açıq və korrekt mövqe ortaya qoyur"*

"Biz həmişə belə situasiyalarda tutarlı humanitar həllərin tərəfdarıyıq: cəsədlərin dəyişdirilməsi, hərbçilərin, girov saxlanan şəxslərin "hamının hamıya" prinsipi ilə dəyişdirilməsi. Və biz hesab edirik ki, belə addım münaqişə zonalarında da etimad mühitinin yaradılmasına xidmət edəcək, istər Yaxın Şərqdə olsun, istər Dağlıq Qarabağda, istərsə də Ukraynanın cənub-şərqində".

Xatırladaq ki, rəsmi Bakı dəfələrlə Ermənistanı əsir və girovların "hamının hamıya" prinsipi ilə dəyişdirilməsinə çağırıb. Lakin Ermənistan hakimiyyəti Dağlıq Qarabağda girov saxlanan Kəlbəcər köçkünləri Şahbaz Quliyev və Dilqəm Əsgərovu heç bir halda dəyişdirməyəcəyini bildirib. Rusiyanın bu açıq mövqeyindən sonra əsir və girovların dəyişdirilməsi ilə bağlı hansı yeniliyi gözləmək olar?

Azərbaycanlı Əsir və Girovlarla Bağlı Məlumat Mərkəzinin koordinatoru, hüquq müdafiəçisi Əhməd Şahidov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Moskva görüşündə tərəflər arasında humanitar problemlərin həlli ilə bağlı bir sıra müzakirələrin, hətta razılaşmaların olması ilə bağlı eyhamlar var idi: "Ermənistan tərəfi hələ ötən ildən Azərbaycanın təklif etdiyi "hamının hamıya" prinsipi ilə əsirlər və girovların dəyişdirilməsi təklifinə razılıq vermək istəmir. Son hadisələr, xüsusilə də Vyana və Moskva görüşlərində aparılan müzakirələr onu deməyə əsas verir ki, humanitar məsələlərin həlli istiqamətində irəliləyiş ola bilər. Bunu hətta əsir və girovların bizim




## *"Bunu həm də Azərbaycanın diplomatik qələbəsi saya bilərik"*

dediyimiz prinsiplə dəyişəcəyinə hazırlıq mərhələsi kimi də qeyd edə bilərik. Son illərə qədər Ermənistan buna razı olmasa da, artıq mövqeyində bir qədər müsbətə doğru irəliləyişlər hiss edilir. Əgər əvvəl Ermənistan bu mövzudan ümumiyyətlə qaçırdısa, hazırda əsir və girovların öz ailə üzvləri ilə görüşməsinə izn verilməsi ilə razılaşır. Əslində, Lavrovun bu yanaşması çox böyük irəliləyişdir. Son vaxtlar Rusiyanın bu münaqişənin həlli ilə bağlı göstərdiyi səylərin ən önəmlisi sırasına məhz bu məsələni aid etmək olar. Son 5 il ərzində Sergey Lavrov əsir və girovlarla bağlı məsələdə ilk dəfə olaraq belə açıq və korrekt mövqe ortaya qoyur. Bunu həm də Azərbaycanın diplomatik qələbəsi saya bilərik. Çünki münaqişə tərəflərinin son Moskva görüşündə də humanitar addımların atılması ilə bağlı razılıq əldə olunmuşdu. İndiyə kimi, xatırlayırsınızsa, Sergey Lavrova müxtəlif platformalarda bu mövzuda verilən suallara yayındırıcı cavablar verirdi. Hətta Dilqəm Əsgərovun Rusiya vətəndaşı olması ilə bağlı sualları belə şərh etmək istəmirdi.

Onun Azərbaycanın tələbi olan "hamının hamıya" prinsipi ilə əsirlərin dəyişilməsi prosesinə açıq dəstək verməsini həm də Ermənistana ünvanlanan bir mesaj da saymaq olar. Əminliklə demək olar ki, proses Azərbaycanın nümayiş etdirdiyi siyasi iradə çərçivəsində həllini tapacaq. Yəqin ki, yaxın aylarda biz prosesin məntiqi sonluqla yekunlaşdığının şahidi olacağıq".

***Məhəmmədəli QƏRİBLİ***

**Gürcüstan Prezidenti Salome Zurabişvili yenidən Azərbaycanla olan bəzi sərhəd "mübahisələri-ni" gündəmə gətirib və məsələnin tezliklə həll edilməsinin zəruriliyini vurğulayıb. Gürcüstan Prezidentinin sözçüsü Xatiya Moissrapişvili deyib ki, Prezident ümumi sərhəddə razılaşmanın Gürcüstan və Azərbaycan arasındakı dostluğu möhkəmləndirəcəyinə və mövcud olan bütün problemləri aradan qaldıracağına əminliyini ifadə edib.**

# Gürcüstan Prezidenti Azərbaycanla sərhəd məsələsini gündəmdən salmır - münasibətləri gərginləşdirmək cəhdi, yoxsa...

***Fərəc Quliyev:** "Azərbaycanın maraqları tapdanacaqsa, biz məcburən dostluq edə bilmərik"*



*"Yeri gəlsə, öz sərt üzümüzü göstərməliyik"*

O qeyd edib ki, sərhədin və onun delimitasiyasının razılaşdırılması mövzusu bu yaxınlarda olmuş hadisədən - Azərbaycan sərhədçilərinin Udabno monastırına gedən yolu bir neçə günlüyə kəsmələrindən sonra yenidən gündəmə gəlib. Xatırladaq ki, 25 apreldə gürcü tərəfi Azərbaycan sərhədçilərinin Keşikçidağ (David Qareci) kompleksinə yolu kəsdiklərini bildirib. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva bu məlumatı şərh edərkən bəyan edib ki, Azərbaycan həmişə Azərbaycan-Gürcüstan sərhədinin tezliklə delimitasiyasının tərəfdarı olub: "Azərbaycanla Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası beynəlxalq təcrübədə tətbiq edilən qaydalara uyğun olaraq, qarşılıqlı əlaqələndirmə prosedurları əsasında, mövcud ikitərəfli formatlar çərçivəsində həll olunur.

Azərbaycan həmişə Azərbaycan-Gürcüstan sərhədinin tezliklə delimitasiya olunmasının tərəfdarı olub. Azərbaycan bu prosesi ən qısa müddət ərzində başa çatdırmağa hazırdır".

Çox maraqlıdır ki, Azərbaycanla bağlı yersiz sərhəd mübahisəsi Gürcüstan Prezidentinin hakimiyyətə gəlməsindən sonra daha da sürətlənib və mütəmadi şəkildə gündəmə gətirilir. Nədənsə, Gürcüstanın yeni Prezidenti həmin ölkənin böyük bir ərazisində separatçılığın hökm sürdüyünü, Abxaziya və Osetiya kimi problemlərin mövcudluğunu, ölkənin ərazi bütövlüyünün bərpası zəruriliyini bu həvəslə dilə gətirmir. O halda, yeni Prezident Azərbaycanla sərhəd məsələsinə niyə belə inadlı yanaşmaq yolunu tutub? Burada Azərbaycanla münasibətləri məqsədli şəkildə gərginləşdirmək kimi maraq ola bilərmi?

Millət vəkili Fərəc Quliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bizim həmin ölkə ilə strateji münasibətlərimiz var: "Hər zaman demişik ki, Gürcüstanla olan oxşar taleyimiz də bizə bir qədər mehriban davranmağı diqtə edir. Ermənistan bizim ərazilərimizi işğal edib, işğalçının ağalarını Gürcüstanın ərazilərini işğal altında saxlayır. Çox təəssüflər olsun ki, Gürcüstan rəhbərliyi bu cür məsələləri kənara qoyub, əsassız yerə bizim üstümüzə gəlməyi məqbul sayır. Ermənilər Cavaxetiyada yeni separatizm ocağını alovlandırırlar. Bəyəm Gürcüstan Prezidenti üçün bunlar xırda məsələlərdir? Gürcüstanın və Azərbaycanın təhdid olunduğu dairələr eyni və məlum olduğu halda, həmin ölkənin belə ehtiyatsız davranmağı doğru deyil. Onların, demək olar ki, bütün iqtisadiyyatı bizdən asılıdır. Mütəmadi olaraq onlara dəstək vermişik. 500 mindən çox soydaşımız orada yaşayır və ermənilərdən fərqli olaraq, Rusiya-Gürcüstan müharibəsi zamanı həmin ölkənin ərazi bütövlüyünü qoruyublar. Ermənilər isə Baqratyan batalyonu düzəldib gürcülərə qarşı vuruşurdular. Göründüyü qədər, Gürcüstan rəhbərliyi bunları görmək istəmir. Buna görə də onların qarşısına mütləq siyasi ritorika qoymalıyıq ki, çərçivələri gözləsinlər. Onların iddia etdiyi məbəd Azərbaycan ərazisindədir. Tarixi mübahisələrə qalsa, Azərbaycanın belə iddiaları irəli sürməyə daha çox əsası var. Bizim ərazimizdə kilsə və ya sinaqoq yerləşirsə, bu o demək deyil ki, həmin ərazi xristianlara və ya yəhudilərə məxsusdur. Eyni paraleli hansısa ölkədə olan məscidlərlə də bağlı aparmaq olar".

Fərəc Quliyev deyir ki, bütün bu məsələləri sərt şəkildə Gürcüstan rəhbərliyinin diqqətinə çatdırmaq lazımdır: "Biz onlara qazı özümüzdən ucuz satırıq. Kəmərlər məsələsində torpaqların alınması maksimum qiymətlə dəyərləndirildi. Onlara ən aşağı faizlə kreditlər veririk. Nə çatışmazlıqları olursa, yanlarında dururuq. Hər bir dövlətin öz mənafeyi varsa, biz imkan verməməliyik ki, hansısa dövlət öz mənafeyi naminə bizdən sui-istifadə etsin. Azərbaycanın maraqları tapdanacaqsa, biz məcburən dostluq edə bilmərik. Yeri gəlsə, öz sərt üzümüzü göstərməliyik. Hələlik doğru yoldur ki, biz diplomatik davranırıq. Amma hesab edirəm ki, Azərbaycan Xarici İşlər Nazirliyi mən dediyim məsələləri özündə ehtiva edən bir sənədlə Gürcüstan tərəfə müraciət etməlidir. Mövqelərində dəyişiklik olmazsa, onlara yerləri göstərilməlidir".

***Məhəmmədəli QƏRİBLİ***

**Uzun illərdir ermənilər Azərbaycan xalqına qarşı müxtəlif istiqamətlərdə təxribat törətməklə məşğuldurlar. Ermənistan silahlı qüvvələrinin işğal altında olan ərazilərimizin ermənilər tərəfindən saxta xəritələri hazırlanaraq bütün dünyaya yayılır. Tarixi Azərbaycan ərazisi olan Qarabağ erməni daşnakları tərəfindən "Artsax" adı ilə təbliğ olunur. Özü də "Artsax"ın xəritəsini hazırlayıblar və həmin xəritənin müxtəlif muzeylərdə nümayişini həyata keçirməklə yanaşı, hətta təəssüf ki, onu müəyyən beynəlxalq nəşrlərə də daxil etməyə nail olublar.**

# Ermənilərin əli müsəlman ölkəsində məscidə də girdi - Tatarıstan...

***Faiq Ələkbərli:** "Ermənilərin Kazanda yerləşən "Qul Şərif" məscidinin muzeyində bu kimi saxta aksiyalar həyata keçirməsi..."*



Ermənilərin Azərbaycana qarşı törətdikləri təxribatların sayı-hesabı yoxdur. Hər gün biz onların yeni təxribat üsulunun şahidi oluruq. Ermənilərin bu dəfə bizə qarşı törətdikləri təxribat Rusiya Federasiyasının Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində baş verib. Belə ki, ermənilər tərəfindən Kazan şəhərində yerləşən "Qul-Şərif" məscidində yerləşən muzeydə Azərbaycanın Qarabağ bölgəsinin "Artsax" adı altında verildiyi orta əsrlər dövrünü (?) əks etdirən xəritə nümayiş olunub.

Ermənilərin Azərbaycanın ərazi bütövlüyünə xələl gətirmək, ictimai rəyi çaşdırmaq məqsədilə ortaya atdıqları saxta xəritə oyununun pozulması üçün müxtəlif zəruri addımlar atılmalıdır.

Tarix üzrə fəlsəfə doktoru, tanınmış tarixçi-alim Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, ermənilərin işğal altında olan Dağlıq Qarabağ və ətraf rayonlarla bağlı nəşr etdirdikləri saxta xəritələr dünyanın bir çox ölkəsində yayılıb. F.Ələkbərlinin sözlərinə görə, biz erməni saxtakarlığının ifşa edilməsi ilə bağlı təbliğatımızı daha geniş səviyyədə qurmalıyıq. O hesab edir ki, ermənilərin bir türk respublikasında yerləşən məscidin muzeyində saxta "Artsax" xəritəsi nümayiş etdirməsi yolverilməzdir. F.Ələkbərlinin sözlərinə görə, biz yalnız Avropa ölkələrində deyil, həmçinin də Rusiya Federasiyasının tərkibində olan türk respublikalarında fəaliyyətimizi gücləndirməliyik. "Ermənilərin yalnız Avropa ölkələrində deyil, eləcə də bəzi türk respublikalarında, o cümlədən, Tatarıstanda belə bir saxta xəritəni nümayiş etdirməsi böyük təxribatdır və bu təxribatın təkrarlanmaması üçün biz əlavə tədbirlər görməliyik. Ermənilər bu cür təxribatları planlaşdırılmış şəkildə edirlər və bunun üçün xüsusi ölkələr, respublikalar seçirlər. Onlar bizə qarşı həyata keçirdikləri bütün təxribatları sistemli şəkildə edirlər. Ona görə də ermənilərin Kazanda yerləşən "Qul Şərif" məscidinin muzeyində bu kimi saxta aksiyalar həyata keçirməsi bizə əsas verir ki, həmin respublikada təbliğatımızı gücləndirək. Onu da bildirim ki, onlar yalnız "Qul Şərif" məscidinin muzeyində deyil, həmçinin, Təbrizin, Tehranın və digər şəhərlərin muzeylərində də saxta "Artsax" xəritəsini nümayiş etdiriblər. Onlar həmin şəhərlərdə, həmçinin, qondarma "Artsax"ın bayrağını da qaldırıblar. Bu gün isə ermənilər bu təxribatı Kazanda təkrar edirlər. Bir türk respublikasında "Artsax"ın xəritəsini nümayiş etdirməklə onlar həm bizi qıcıqlandırmaq məsədi güdürlər, həm də bununla türk birliyinə qarşı təxribat törədirlər. Onlar belə rəy yaratmaq istəyirlər ki, guya bəzi türk respublikalarında bizə sevgi yoxdur. Bu məsələdə ermənilər ciddi yanlışlığa yol verirlər. Azərbaycan olaraq erməni təxribatına qarşı ən ciddi şəkildə reaksiyalar verməliyik. Torpaqlarımızın işğaldan azad olunması üçün qəti mövqe ortaya qoymadıqca, ermənilər daha da azğınlaşacaqlar. Bəlkə də onlar bu cür saxta xəritələr nümayiş etdirməklə bizim səbrimizi sınağa çəkirlər".

**"Onlar, həmçinin, Təbrizin, Tehranın və digər şəhərlərin muzeylərində də saxta "Artsax" xəritəsini nümayiş etdiriblər"**

F.Ələkbərli hesab edir ki, bu məsələdə Azərbaycan dövlətinin mövqeyi bəllidir və biz torpaqlarımızı hərbi yolla da düşməndən azad etməyə hazırıq. O qeyd etdi ki, dövlət öz üzərinə düşəni edir, hazırda dünya ölkələrində ziyalılar, alimlər, ictimaiyyət nümayəndələri, diaspor təşkilatları səviyyəsində erməni təxribatının qarşısını almaq üçün vahid mübarizə tədbirləri gücləndirilməlidir. "Biz bu gün əsasən özümüzü müdafiə ilə məşğuluq. Ancaq biz bütün təbliğat məsələlərində ermənilər qabaqlamalıyıq. Yəni bütün ölkələrdə təbliğatımızı qurmalıyıq, tariximizi tanıtmalıyıq, işğal altında olan ərazilərimizlə bağlı xəritələr, materiallar hazırlayıb təqdim etməliyik. Biz hər şeyi dövlətin üzərinə qoya bilmərik, dövlət öz işini görür. Alimlər, ictimaiyyət nümayəndələri, ziyalılar, xaricdə yaşayan soydaşlarımız erməni təxribatı ilə bağlı qabaqlayıcı tədbirlər görməlidirlər. Çünki onlar hər an pusqudadırlar və bir az boşluq görən kimi orada Azərbaycana qarşı təxribatla məşğul olurlar" -deyə F.Ələkbərli bildirdi.

***İradə SARIYEVA***

# "Keşikçidağ"ı Azərbaycanla Gürcüstan arasında münaqişə ocağına çevirmək istəyənlər var...

**Son zamanlar "Keşikçidağ" məbədi və yaxud da "David Qareci" məbəd kompleksi ilə bağlı olaylar xüsusi diqqət mərkəzində yer almağa başlayıb. Azərbaycan bu məsələni sakit və danışıqlar yolu ilə həll etməyə çalışsa da, gürcü tərəfində proseslərlə bağlı birmənalı mövqe müşahidə olunmur. Məsələ burasındadır ki, bir hissəsi Azərbaycanın Ağstafa rayonu, digər hissəsi isə Gürcüstanın Saqareco rayonu ərazisində yerləşən "Keşikçidağ" məbədi barədə qonşu ölkədə bir-birinə zidd olan müxtəlif fikirlər yayılır.**

Burada bəzi siyasətçilər məbəd kompleksinin məhz Gürcüstana məxsus olması barədə fikirlər səsləndirir, əhalini də buna inandırmağa çalışırlar. Lakin sağlam düşüncəli siyasətçilər bunun əksini sübut etməklə yanaşı, əhalini sabitliyə və Azərbaycan-Gürcüstan dostluq münasibətlərinə zərər vurmamağa dəvət edirlər. Məsələyə növbəti dəfə münasibət bildirən Gürcüstan prezidenti Salome Zurabişvili ümumi sərhəddə razılaşmanın Gürcüstan və Azərbaycan arasındakı dostluğu möhkəmləndirəcəyinə və mövcud olan bütün məsələləri aradan qaldıracağına əminliyini ifadə edib. Gürcüstan prezidentinin media spikeri Xatiya Moissrapişvili qeyd edib ki, sərhədin və onun delimitasiyasının razılaşdırılması mövzusu bu yaxınlardakı hadisədən-Azərbaycan sərhədçilərinin Udabno gürcü monastırına gedən yolu bir neçə günlüyə kəsmələrindən sonra yenidən gündəmə gəlib.

Xatırladaq ki, 25 apreldə gürcü tərəfi Azərbaycan sərhədçilərinin "Keşikçidağ" kompleksinə yolu kəsdiklərini bildirib. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva bu məlumatı şərh edərkən bəyan edib ki, Azərbaycan həmişə Azərbaycan-Gürcüstan sərhədinin tezliklə delimitasiyasının tərəfdarı olub: "Azərbaycanla Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası, beynəlxalq təcrübədə tətbiq edilən qaydalara uyğun olaraq, qarşılıqlı əlaqələndirmə prosedurları əsasında mövcud ikitərəfli formatlar çərçivəsində həll olunur. Azərbaycan həmişə Azərbaycan-Gürcüstan sərhədinin tezliklə delimitasiya olunmasının tərəfdarı olub. Azərbaycan bu prosesi ən qısa müddət ərzində başa çatdırmağa hazırdır".

Məsələyə yenidən toxunan "Rustavi-2" telekanalı bildirir ki, hazırda bu ərazidə turistlərin və zəvvarların hərəkəti üçün məhdudiyyət yoxdur. Amma istisna deyil ki, Azərbaycan sərhədçiləri mayın 5-də "Keşikçidağ"a gedişi bağlayacaq: "Əvvəllər onların sərhədçilərinin sayı cəmi 2 idi. İndi isə təxminən 18 nəfərdir, heç vaxt bu qədər çox olmamışdılar".

Gürcüstan parlamentinin deputatı Savalan Mirzəyev bəzi siyasətçiləri təxribatlardan çəkinməyə çağırıb: "Gürcüstan və Azərbaycan əsrlər boyu dost ölkələr olaraq mehriban qonşuluq münasibətində yaşayıblar. Bu dostluq bundan sonra da davam edəcək. Heç kim bu dostluğu poza bilməz". "Keşikçidağ" məbədi ətrafında süni şəkildə yaranmış məsələyə toxunan S.Mirzəyev bildirib ki, bu, şübhəsiz ki, öz həllini tapacaq: "Bu gün Azərbaycan və Gürcüstanda iki ölkə arasında sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı komissiyalar var. İnanıram ki, bu komissiyalar tarixçilərin və siyasətçilərin də rəylərini nəzərə alaraq məsələnin həlli yolunu tapacaqlar. S.Mirzəyev ötən günlərdə öz sərsəm açıqlamaları və bəyanatları ilə ad çıxarmış üzdəniraq siyasətçi, sabiq müdafiə naziri İrakli Okruaşvili və Gürcüstan Liberal Partiyasının sədri Şalva Natelaşvilinin açıqlamalarına işarə edərək deyib: "Keçmiş və ya indiki siyasətçilərin açıqlamaları məsuliyyətsiz, heç bir cavabdehliyi olmayan və vəziyyəti gərginləşdirməyə yönəlmiş çıxışlardır. Onların açıqlamaları tamamilə absurddur və reallığı əks etdirmir, əksinə, vəziyyəti gərginləşdirir. Mən bütün siyasətçiləri



və sıravi vətəndaşları bu cür məsələlərə fikir bildirməkdən çəkinməyə dəvət edirəm. Düşünürəm ki, bu məsələ iki ölkə tərəfindən yaradılmış müştərək komissiyaların birgə səyi nəticəsində öz müsbət həllini tapacaq". Yaranmış durumda Gürcüstanda siyasi proseslərin istiqamətinə baxanda, məsələ ilə bağlı yaradılan süni gərginliyin "Gürcü arzusu" iqtidarına qarşı siyasi rıçaq kimi istifadə edildiyi, gürcü müxalifətinin millətçilik kartına yatırım edərək, ictimai rəydə üstünlük qazanmağa çalışdığı görünür. Keçmiş müdafiə naziri İrakli Okruaşvilinin sərsəm bəyanatı da buna hesablanıb. Bu baxımdan, sərhəd məsələsində gərginliyin yaradılmasına Gürcüstan daxilində iqtidar-müxalifət qovğası olaraq baxmaq olar. Digər tərəfdən, prosesin inkişafı məsələnin görünməyən tərəfindən ciddi təxribatın hazırlandığına dair ehtimalları da gücləndirir. Məsələn, bəzi gürcü media orqanları iddia edir ki, Azərbaycan sərhədçiləri turist və zəvvarları məbəd kompleksinə buraxmır. İnformasiyanın, Gürcüstan mediası ilə yanaşı, Ermənistan və regionda erməniyönümlü media tərəfindən tirajlaması baş verənlərin pərdəarxasını anlamağa imkan verir. Ermənistanın "aravot", "yerkramas" və digər şovinist nəşrlərində də proses süni şəkildə şişirdilir.

Baş verənlərdən aydın aydın olur ki, düşmənin məqsədi sərhədin delimitasiyası ilə bağlı aparılan müzakirələrin yönünü dəyişmək, mümkünsə, Bakı və Tiflis arasında hazırda problem olaraq görünən məsələnin həll edilməsinin qarşısını almaqdır. Azərbaycan sərhədçilərinin zəvvarlara manee kimi göstərilməsinin arxasında da bu məqsəd durur. Burada əsas niyyət Gürcüstan ictimaiyyətində və xristian icmalarında Azərbaycana qarşı qəzəbi formalaşdırmaqdır. Beləliklə, yaradılan süni gərginliyin arxasında erməni barmağı aydın görünür. Hədəf Azərbaycan - Gürcüstan münasibətlərinin pozulmasıdır. Proseslərin gedişi təsdiqləyir ki, bu məsələdə Gürcüstandakı erməni lobbisinin də aktiv fəaliyyəti var. Halbuki, məlumatlara görə, ermənilər Gürcüstanın 465 məbədinə rəsmi şəkildə iddia edir. Azərbaycan torpaqlarını işğal edənlər bu gün Gürcüstan torpaqlarına da açıq şəkildə iddia edir. Bu məndə aydındır ki, Azərbaycana qarşı yanlış addım ilk növbədə Gürcüstanın ziyanınadır. Məhz bu səbəbdən erməni dəyirmanına su tökən gürcü siyasətçilər "Keşiçkidağ" olaynın gərginləşməsinin onların ölkələri üçün ciddi bəlaya çevrilə biləcəyini də diqqətdən qaçırmamalıdır. Azərbaycan isə gürcü tərəfi ilə sərhəd məsələsində yaranan problemi çözməyə daim hazır olduğunu bildirir. Bura "Keşiçkidağ" məsələsi də daxildir. Bir daha xatırladaq ki, "Keşiçkidağ" Azərbaycan-Gürcüstan sərhədində yerləşən, hazırda mübahisəli ərazi sayılan zonada yerləşən qədim alban məbədidir. Məbədin mənşəyinə dair Azərbaycan və gürcü mənbələri arasında tarixi konsensus mövcud deyil. Azərbaycan mənbələrinə görə, "Keşikçidağ" məbədi qədim alban mənşəli olub, Qafqaz Albaniyası mədəni irsinə aiddir. Məbəd gürcülər tərəfindən yalnız IV Qurucu Davidin hakimiyyəti dövründə (1089-1125) ziyarət edilməyə başlanıb. Daha sonra gürcü çarı Tamaranın hakimiyyəti illərində (1184-1207) gürcü kilsəsinin təsiri altına düşüb. O dövrdə Azərbaycanda mövcud olan Atabəylər dövləti, həmçinin Şirvanşahlar dövləti xristian məbədlərinə o qədər də maraq göstərməyib və bu məbədləri himayə etməyiblər. Məhz belə bir dövrdə onsuz da sayca azlıqda qalan xristian albanlar dağlara çəkilib və məbəd də o dövrdə tərk edilib. Aparılan tədqiqatlar göstərib ki, məbədin divarlarına çəkilmiş şəkillər və gürcü dilində yazılar onun yaşına nisbətən xeyli gəncdir.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Lavrov həmsədr ölkə başçılarının "ərazi bütövlüyü" əsasında Qarabağ həllini təklif etdiklərini təsdiqlədi...

**Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın işğalçı Ermənistan üzərində ən mühüm üstünlüklərindən biri bu gün beynəlxalq ictimaiyyətin məhz ölkəmizin mövqeyini bu məsələdə tam şəkildə dəstəkləməsidir. Dünya ictimaiyyəti məsələyə yanaşmada Azərbaycanın tələblərinin haqlı olduğunu bəyan edir, bunu qəbul edilən müxtəlif sənədlərlə də təsdiqləyir.**

Yaranmış vəziyyətdə beynəlxalq miqyasda mövqeyini gücləndirən Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində prnisipial mövqelərini daha güclü hala gətirir. Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu məsələyə toxunan Prezident İlham Əliyev qeyd edir: "O ki qaldı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə, bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Prinsipial mövqeyimiz ondan ibarətdir ki, bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr əsasında, Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun həll olunmalıdır. Başqa yanaşma yoxdur. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Onu da bildirməliyəm ki, danışıqlar formatı dəyişməz olaraq qalır. Baxmayaraq ki, bəzi cəhdlər olub, ancaq bizim fəaliyyətimiz nəticəsində bu cəhdlərin qarşısı alınıb. Həmçinin Minsk Qrupunun həmsədrləri tərəfindən martın 9-da verilmiş açıqlama ünvanlıdır, birmənalıdır və bir daha onu göstərir ki, münaqişənin iki tərəfi var. Ona görə hesab edirəm ki, bu mövzu artıq öz həllini tapıb. Biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq, ölkəmizi, ordumuzu gücləndirəcəyik. Bu ilin əvvəlindən bu istiqamətdə də böyük işlər görülüb və görüləcək".

Bu fikirlərdən aydın görünür ki, Azərbaycanın gedişləri Qarabağ məsələsində İrəvanın bütün neqativ gedişlərinin fiasko ilə nəticələnməsinə gətirib çıxarıb. Eyni zamanda, Azərbaycan ən yüksək səviyyədə bəyan edir ki, aparılan sülh danışıqları istənilən nəticəni verməsə, gücləndirməkdə olduğu ordusundan istifadə edərək məsələni çözməli olacaq. İndilikdə isə erməni tərəfi məsələnin sülh yolu ilə mümkün həllinə dair heç də birmənalı mövqe nümayiş etdirmir. Belə ki, Moskvada aprelin 15-də Rusiya xarici işlər naziri Sergey Lavrovun təşkil etdiyi Lavrov-Məmmədyarov-Mnatsakanyan görüşündən sonra Ermənistan tərəfi aparılan danışıqların məzmunu barədə ziddiyyətli bəyanatlar verməyə davam edir. Azərbaycanın XİN rəhbəri Elmar Məmmədyarov bəyan edib ki, tərəflər Rusiya tərəfindən 2016-cı ildə irəli sürülən təkliflər əsasında Qarabağ münaqişəsinin nizamlanması məsələsini müzakirə edir. Rəsmi İrəvan isə bunu təkzib edərək, Moskvada aparılan danışıqların bütün mövzularının hər üç nazirin birgə bəyanatında öz əksini tapdığını irəli sürür.

Bəyanata əsasən, tərəflər Azərbaycan-Ermənistan sərhədi və cəbhə xəttindəki vəziyyəti, o cümlədən humanitar sahədə qarşılıqlı əməkdaşlıq fəaliyyəti perspektivlərini müzakirə edib. Elmar Məmmədyarov isə bildirib ki, tərəflər münaqişənin həlli üzrə konkret məsələlər ətrafında müzakirələr aparıb: "Çox faydalı görüş oldu. İndiyə qədər danışıqlarda irəliləyişə imkan verməyən məsələləri konkret şəkildə müzakirə etdik. Tam şəkildə irəliləyişin olmasını deyə bilmərəm. Ancaq Ermənistan tərəfi ilə bəzi problem yaradan məqamları ətraflı və daha dərindən başa düşə bildik. Məsələn, Ermənistan tərəfi statusla və təhlükəsizliklə bağlı məsələ qaldırdı. Biz isə qoşunların işğal altında olan torpaqlardan çıxarılması və məcburi köçkünlərin geri qaytarılması məsələsini qaldırdıq. Bu dörd fikir əsasında çox dərin müzakirələr apardıq". Lakin Ermənistan XİN-in mətbuat katibinin sözlərinə görə, hazırda hər hansı proqram əsasında danışıqlar aparılmır. Qarşılıqlı mövqelərin öyrənilməsi, aydınlaşdırılması və dəqiqləşdirilməsi üzrə tanışlıq müzakirələri davam edir.

Aprelin 24-də jurnalistlərin xahişi ilə "Lavrov planı" adlandırılan məsələyə Ermənistanın XİN rəhbəri Zöhrab Mnatsakanyan da toxunub. O bildirib ki, Ermənistan indiki məqamda hər hansı sənədi müzakirə etmir. Amma bir məsələ aydındır ki, Azərbaycan erməni tərəfi ilə heç də boş vaxt keçirmir və bunu Yaxın Şərq və Qafqaz məsələləri üzrə rus ekspert Stanislav Tarasov Ermənistanın "Araçin Lratvakan" xəbər agentliyinə müsahibəsində də təsdiq edir. O, Elmar Məmmədyarovun bəyan etdiyi 2016-cı il təkliflərinin müzakirəsi, erməni tərəfinin bunu inkar etməsi, Lavrovun isə nə təsdiq, nə də təkzib etməməsi ilə bağlı məsələyə belə aydınlıq gətirib: "Danışıqlar qapalıdır və müəyyən məlumatların yayılmaması öhdəliyi mövcuddur. "Lavrov planı" adlandırılan sənədin məzmunu nədən ibarətdir, bunu bilən yoxdur, çünki belə bir sənədin varlığını Rusiya XİN inkar edib. Amerikalı həmsədr tərəfindən də şərti olaraq "Lavrov planı" adlandırılan sənədin mövcud olmadığı, sadəcə, prosesə şərti olaraq onlar tərəfindən belə bir ad qoyulduğu qeyd edilib. İkincisi də, tərəflər bir-birinin mövqelərini aydınlaşdırmağa çalışır. Ümumiyyətlə, danışıqlar prosesinin əsasını 5-6 baza sənədləri təşkil edir. İstənilən halda, danışıqlar davam edir və onlar nəyinsə ətrafında müzakirələr aparırlar. Fakt odur ki, Məmmədyarov və Mnatsakanyan görüşür.. Həm də Əliyev və Paşinyanın da görüşməsi bir faktdır. Bu o deməkdir ki, danışıqlar predmeti var. Hamımız bilirik ki, danışıqlar predmeti olmasaydı, bu görüşlər baş tutmazdı. Bunun arxasında nə gizlənir, heç kim bilmir, o cümlədən mən də".

Burada xatırladaq ki, əslində, Rusiyanın xarici işlər naziri Sergey Lavrov da elə bu günlərdə Moskvada serbiyalı həmkarı ilə birgə mətbuat konfransında etiraf edib ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlar masasında Rusiya tərəfinin 2016-cı ildə irəli sürdüyü təkliflər var. O, sözügedən təkliflərin detallarının konfidensial saxlandığını vurğulayıb. Lavrovun sözlərinə görə, bu təkliflərin mahiyyətinə gəlincə, onlar həmsədr ölkələrin başçılarının çoxsaylı bəyanatlarında ifadə olunan yanaşmalar əsasında aparılır. Onlar təklif ediblər ki, tərəflər ərazi bütövlüyü və gücdən istifadə etməmək prinsiplərini əsas götürərək öz aralarında razılığa gəlsin.

Elə Moskva görüşündən sonra, rəsmi məlumata əsasən, tərəflərin cəbhə xəttində və sərhəddəki vəziyyəti, təhlükəsizlik məsələlərini müzakirə etdikləri, dialoqu və danışıqlar prosesini qoruyub saxlamağa çalışdıqları deyilir. Bu məsələyə münasibət bildirən ekspert Stanislav Tarasov isə vurğulayır: "Sənədlə möhkəmləndirilməsə də, nəticə Düşənbədə ayaqüstü əldə edilən və bu gün də əməl olunan gərginliyin azaldılması və operativ əlaqənin yaradılması haqqında razılıqdır. Kənd təsərrüfatı işlərinin aparılması sahəsində təhlükəsizliyə əməl olunmasına dair təklif də dəstəklənib. Bu çox mürəkkəb münaqişədir, bunu addım-addım həll etmək lazımdır. Qarabağ məsələsində separatçı rejimin münaqişə tərəfi kimi danışıqlarda təmsil olunması tələbindən başqa Paşinyan özünü inqilabçı kimi ifadə edə bilmir, Serj Sarkisyan dönəmindəki oyunu oynayır. Bu tələbinə baxmayaraq, Paşinyan köhnə formatda danışıqlar aparılmasını davam etdirir". Ekspert burada diqqəti həm də ona yönəldir ki, Paşinyan danışıqlar prosesinə yeni ideyalar gətirmək istəsə də bunu bacarmır və güclü Azərbaycan diplomatiyası bunu uğurla əngəlləyir: "Digər tərəfdən, Paşinyanın danışıqlar prosesinə yeni ideyalar gətirmək cəhdləri demaqogiyadır. Xalqların sülhə hazırlanmasını təklif edir, amma necə hazırlanmasını demir. Eyni zamanda, tərəflərdən biri ərazi bütövlüyünü şərt qoyaraq danışıqlar aparırsa, digəri bunu bilərək danışıqlara davam edirsə, bu, şərtin qəbul edilməsi mənasını daşıyır.

Ermənistanda inqilab baş verdiyi zaman Azərbaycan istəsəydi, baş verən inqilabi vəziyyətdən yararlanaraq zərbə endirə bilərdi. Həmin dövrdə Ermənistanda lider yox idi. Keçmiş rəhbər vəzifədən uzaqlaşdırılmış, yeni rəhbər isə hələ yerinə oturmamışdı. Lakin Azərbaycan bunu etmədi və qəflətən Əliyev Paşinyanla Düşənbədə görüş keçirdi, bir neçə məsələ ətrafında razılıq əldə olundu. Hansı erməni ekspert deyə bilər, niyə Ermənistanda seçkilərdən öncə Əliyev Düşənbədə Paşinyanla görüşdü?... Ola bilər ki, Paşinyanın güzəştlər edəcəyinə Əliyevin hər hansa əsası var. Həm də nəzərə alaq ki, Qarabağ münaqişəsi Rusiyaya yaxın olduğu üçün Putin məsələ ilə məşğuldur. Müharibə Yaxın Şərqdən Cənubi Qafqaza sıçrayarsa, bu yalnız Ermənistan və Azərbaycan deyil, həm də Rusiyaya təsir edəcək. Vəziyyətin bu cür inkişafının qarşısı alınmalıdır. Əsas məsələ budur. Rusiya deyir ki, razılığa gəlin, biz şərt diqtə etmirik. Ancaq razılığa gəlməsəniz və bizim burnumuzun dibində müharibə başlayarsa, bu müharibə Rusiya üçün təhlükəlidir. Bu halda Rusiya öz problemlərini həll edəcək. Amma Moskvada onu da yaxşı başa düşürlər ki, problemin həlli üçün Ermənistan zəbt edilmiş ərazilərin tədricən geri qaytarılmasına başlamalıdır. Rusiyanın da istəyi elə bu istiqamətdədir". Ekspert bu xüsusda Bakının Moskva ilə uğurlu əməkdaşlıq münasibətləri qura bildiyini də xüsusi qeyd edib.

Beləliklə, yuxarıda qeyd edilənlərdən aydın olur ki, əslində, danışıqlar masasında Azərbaycan yenə kifayət qədər güclü mövqenin sahibi qismində çıxış edir. Ermənistanın isə indiyə qədər danışıqların formatını dəyişmək və ya hansısa formada ona gələl gətirmək cəhdləri nəticəsiz başa çatıb. Əksinə, indi dünya ictimaiyyəti İrəvanı artıq problemin həlli istiqamətində əməli addımlar atmağa vadar etmək niyyətindədir. Əks təqdirdə Azərbaycanın məsələni güc yolu ilə həll etməsinə artıq heç kim mane ola bilməyəcək.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Dünya neft bazarında son günlərdə baş verən proseslər yenidən diqqəti bura yönəldib. Belə ki, son günlərə qədər neft qiymətlərində qeydə alınan sürətli artım ABŞ-ı ciddi narahat etdiyindən, prezident Donald Tramp məsələyə müdaxilə etdiyini açıqladı. Belə ki, ötən həftə ABŞ prezidenti OPEC-ə neftin qiymətini aşağı salmaları üçün müraciət etdiyini deyib: "Neftin qiyməti aşağı düşəcək. OPEC-ə müraciət etdim və neftin qiymətini aşağı salmalarının vacibliyini söylədim".**

# Azərbaycanın təklif etdiyi format dünya neft qiymətlərini uğurla tənzimləyir

ABŞ prezidentinin bu açıqlamasından sonra isə neftin qiyməti ucuzlaşmağa başlasa da, bu, müvəqqəti xarakter aldı. İrandan neft alışının dayandırılması istiqamətində ABŞ-ın atdığı addımlar, Venesuelada gərginləşən vəziyyət fonunda neft qiyməti yenidən artıma keçib. İran ordusunun baş qərargah rəisi Məhəmməd Baqerinin açıqlamaları da prosesə təsirsiz ötüşməyib. O bildirib ki, Hörmüz boğazından İran nefti keçməyəcəksə, başqalarının da nefti keçməyəcək. Bu fonda ABŞ-İran qarşıdurmasının artım ehtimalı neft qiymətlərinə təsir göstərməyə başlayıb. Hazırda dünya birjalarında neftin qiyməti yenidən artmıa keçib. "Brent" markalı neftin bir barrelinin qiyməti 0,76 dollar artaraq 72,8 dollar təşkil edib. Azərbaycan neftinin də qiyməti bahalaşır. Belə ki, "Azeri Light" markalı neftin bir barrelinin qiyməti 1,02 dollar artaraq 75,55 dollar təşkil edib.

Ekspertlər isə bildirir ki, ABŞ-ın istəyinə rəğmən, OPEC özü də qiymətlərin ucuzlaşmasında maraqlı deyil. Əksinə, qiymətlərin bir qədər də yüksəlməsi üçün qurumun müəyyən gedişlər etməsi, hasilatı azaltması belə istisna deyil. Qeyd edək ki, artıq bu xüsusda OPEC+ formatı uğurlu şəkildə fəaliyyət göstərir və onun işində ən yaxından iştirak edən ölkələrdən biri də Azərbaycandır. Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bu məsələyə toxunan prezident İlham Əliyev qeyd edib: "Bakıda bizim təşəbbüsümüzlə OPEC+ görüşü keçirilmişdir. Bildiyiniz kimi, Azərbaycan nəinki bu təşəbbüsün iştirakçısıdır, hətta bu təşəbbüsün, - əgər belə demək mümkündürsə, - müəlliflərindən biridir. Çünki OPEC-in baş katibinin Bakıda olan zaman açıqlaması bunu göstərir. Mən bunu özüm heç vaxt demirdim. Ancaq o bunu rəsmi qaydada bildirdi ki, hələ 2016-cı ildə Davos Ümumdünya İqtisadi Forumunda çıxış edərkən, paneldə suala cavab verərkən demişdim ki, neftin qiymətinin tənzimlənməsi üçün ən məqbul variant OPEC və iri qeyri-OPEC ölkələrinin birgə fəaliyyətidir. Onlar razılığa gəlməlidirlər ki, neftin qiyməti sabit qalsın. Hasilat aşağı düşməlidir və hər kəs buna əməl etməlidir. Ancaq o halda neftin qiyməti qalxa bilər. Əgər o vaxt neftin qiyməti təqribən 30 dollar ətrafında idisə, bu gün bu, 70 dollar ətrafındadır. Yəni, burada da Azərbaycan öz töhfəsini verir. Bizim dəvətimizlə OPEC və qeyri-OPEC ölkələrinin görüşü Bakıda keçirilmişdir. Adətən bu görüş OPEC-in mənzil-qərargahında keçirilir, bəzi hallarda başqa ölkələrdə, o cümlədən Bakıda".




Hazırda Azərbaycanın təşəbbüsü ilə yaranan OPEC+ formatı neft qiymətlərinin tənzimlənməsində kifayət qədər mühüm rol oynayır. Bu arada xatırladaq ki, ötən il dekabrın 7-də Vyanada OPEC-ə üzv və qeyri-üzv dövlətlərin nazirlərinin beşinci görüşündə neft hasilatının gündəlik 1,2 milyon barrel azaldılması ilə bağlı razılıq əldə olunub. Yeni qərara əsasən, yanvardan etibarən Azərbaycan gündəlik hasilatın təxminən 20 min barrel azaldılması ilə bağlı öhdəlik götürüb. Sazişin müddəti iyunda başa çatır. Amma qiymətlərin tənzimlənməsi məqsədilə sazişin müddətinin uzadılması da gözlənilir.

Məhşur "BNP Paribas SA" bankının ekspertləri də bu fikirdədirlər ki, OPEC-ə üzv dövlətlər və tərəfdaşları neft istehsalının azaldılmasına dair sazişin müddətini ilin sonuna kimi artıra bilər. Qeyd olunur ki, hazırda investorlar mayın 2-də müddəti bitəcək olan ABŞ-ın İrandan neft alan ölkələrə tətbiq etdiyi güzəştə OPEC və müttəfiqlərinin necə reaksiya verəcəyini qiymətləndirməyə çalışır. Ağ Evdən edilən şərhə görə, digər istehsalçılar İran nefti ilə bağlı yaranacaq tədarük çatışmazlığını aradan qaldırmağa qadirdir. Lakin ən böyük neft ixracatçısı olan Səudiyyə Ərəbistanı bununla bağlı daha tez reaksiya verməkdə maraqlı görünmür. Beynəlxalq Valyuta Fondunun məlumatları da göstərir ki, Səudiyyə Ərəbistanının builki büdcəsini tarazlaması üçün neftin qiymətinin 85 dollaradək artması lazımdır. "BNP Paribas SA"ya görə, OPEC və müttəfiqlərinin iyundakı toplantıda neft hasilatının azaldılması ilə bağlı sazişin müddətini ilin sonunadək artırmaları üçün yaxşı fürsət var. Elə Rusiya prezidenti Vladimir Putin də bildirir ki, ABŞ-ın istəklərinin əksinə olaraq, OPEC-in istehsalla bağlı məhdudiyyətdən imtina etməsi ehtimal olunmur. O, OPEC-ə üzv ölkələrin istehsalı azaltmaqla bağlı sazişi tərk etməyi qiymətləndirdikləri barədə heç bir məlumatı olmadığını və belə bir qərarın alınmasının ehtimal edilmədiyini bildirib: "Qlobal neft bazarının ABŞ-ın İrana qarşı sanksiyalarına necə cavab verəcəyini isə deyə bilmərəm. Ümid edirəm ki, Səudiyyə Ərəbistanı İranın ixracı ilə bağlı mümkün azalmanı kompensasiya etmək üçün öz istehsalını artırmayacaq. OPEC-ə üzv ölkələrin mövcud razılaşmadan imtina edəcəkləri ehtimal olunmur". Məhz bu vəziyyətdə neft qiymətləri yenidən yüksəlişə keçib.

***Tahir TAĞIYEV***



# Səudiyyə şahzadəsi Fələstinə Trampın sülh planını qəbul etməsi qarşılığında 10 milyard dollar təklif edib...

**Səudiyyə şahzadəsi Məhəmməd bin Salman ABŞ prezidenti Tramp tərəfindən hazırlanan və "Əsrin anlaşması" adlandırılan sülh planını qəbul etməsi üçün Fələstin prezidenti Mahmud Abbasa 10 milyard dollar təklif edib.**

Baki-xeber.com xəbər verir ki, bu barədə Livan "El Ahbar" qəzeti məlumat yayıb. Qəzet yazır ki, Mahmud Abbas şahzadənin 10 milyard dollar təklifini rədd edib.

Şahzadə Salman Abbasa "Əsrin anlaşması"nın detalları haqqında məlumat verib və ondan bu müqaviləni qəbul etməsini istəyib. Həmçinin, Fələstin dövləti və onun nazirlərinə nə qədər pul lazım olduğunu da soruşub.

Abbas isə fələstinlilərin ildə 1 milyard dollara ehtiyacı olduğunu söyləyib. Məhz bundan sonra Salman "Əsrin anlaşması"nı qəbul etsəniz sizə on il ərzində 10 milyard dollar verərəm" deyib. Mahmud Abbas isə bu təklifi siyasi karyerasının sonu anlamına gələcəyini deyərək rədd edib.

Qəzet bu danışıq barəsində İordaniya səfirinin yazdığı hesabata istinad etdiyini açıqlayıb.

**Səudiyyə şahzadəsi Salman Abbasa, anlaşma qəbul ediləcəyi halda, Səudiyyə Ərəbistanı və digər ərəb ölkələrinin fələstinlilərə maddi dəstək verəcəyini və Qərbi Şeriada B və C bölgələri üzərində Fələstinin idarəçiliyini genişlədərək iqtisadi layihələrə başlamalarına kömək edəcəklərini deyib.**

Fələstin prezidenti Mahmud Abbas isə şahzadə Salmana iki dövlətli həll yolunu təklif edib.

# Azərbaycanın hərəkatçı siyasətçiləri memuar yazmaqdan çəkinir - problemin ilginc səbəbləri...

## Fazil Mustafa: "Memuar kiməsə acıq vermək, kimisə qaralamaq üçün yazılmır"

Politoloq Zərdüşt Əlizadənin yeni memuarı işıq üzü görüb. O, yazdığı memuarda keçmiş AXC və Müsavat hakimiyyəti dövründəki siyasətçilərin ünvanına bir sıra ittihamlar səsləndirib. Bildirilir ki, həmin memuarda sərt tənqid edilənlərin arasında İsa Qəmbərin də adı var. Elə bu mövzu da bizim siyasətçilərin niyə kitab və memuar yazmadığı ilə bağlı mövzunu gündəmə gətirmiş olub. Məsələyə münasibət bildirən Müsavat Partiyasının sabiq başqanı İsa Qəmbər deyib ki, standart bir şey yazmaq istəmir: "Bir az özümü, bir az mənə yaxın adamları tərifləyim, müəyyən məsələlərin üstündən keçim… Yazsam, müasir tariximizi kifayət qədər bilməyənlər üçün aydınlaşdıracaq, bilənlərin yadına salacaq müəyyən həqiqətləri yazmaq istəyirəm".

İ.Qəmbər deyib ki, Zərdüşt Əlizadə kimi yalan yazmaq istəmir: "Zərdüşt Əlizadə kimi yalan yazmaq istəmirəm. O, ömrü boyu yazdığı, danışdığı yalanları bir yerə toplayıb kitab halına saldı. İndi də gənclər bizə deyirlər ki, Zərdüşt Əlizadə yazdı, siz niyə yazmırsınız? O yalan yazıb axı?! Onun yazdıqları öz komplekslərinin, ilk növbədə natamamlıq kompleksinin nəticəsidi. Mən elə bir şey yazmaq istəmirəm. Həqiqətləri də yazanda aləm bir-birinə dəyəcək".

Sabiq başqan memuar yazmamağının əsl səbəbini də izah edib: "Məni narahat eləyən kimisə incitmək deyil, əsas mövzuların dəyişməsidi. Mən insanların bu günə və gələcəyə baxmasını istəyirəm. Çalışıram ki, bütün yazılarımda insanları gələcəyə yönləndirəm, ümidlərini, özlərinə, bir-birlərinə və millətə inamlarını artıram. İkincisi isə, memuar janrını o qədər də sevmirəm, mənə süni təsir bağışlayır. Həm bizimkilərə, həm də avropalılara, amerikalılara məxsus çox memuar oxumuşam. Adamlar özlərini təmizə çıxartmağa çalışırlar. Oxuyanda adama elə gəlir ki, bu adam dahi imiş, həmişə dürüst, haqlı olub. Adətən də soruşanda ki, sənin heç bir qüsurun, səhvin olmayıb, yaxud da özləri öz qüsurlarından yazanda ən böyük qüsur kimi insanlara inanmaqlarını göstərirlər.

Yəni memuar mənə özünü tərifləmək, özünə bəraət qazandırmaq, insanları özünün həmişə haqlı olduğuna inandırmaq, hadisələri öz bildiyi kimi şərh eləmək cəhdi kimi görünür. Çox nadir memuarlar var - ki, daha çox avropalılara aiddi - müəlliflər öz nöqsanlarından daha səmimi, daha rahat şəkildə danışırlar. Məsələn, mən səksəninci illərin ortalarından Azərbaycanda gedən ictimai proseslərin bu və ya digər şəkildə iştirakçısıyam, bir az da mərkəzindəyəm. Dediyim kimi, mən yazsam, həmin dövr təzədən müzakirə olunmağa başlayacaq. Mənsə istəyirəm ki, cəmiyyətimiz diqqətini gələcəyə yönəltsin".



*"Gələcək nəsillər üçün irs olaraq nəzərdə tutulan bu janra çox da həqarətlə yanaşmağı doğru saymıram"*

Göründüyü kimi, İsa Qəmbər memuar yazmamağının səbəbini müxtəlif amillərlə izah edib. Memuar yazmaqla bağlı səslənən iddiaları və siyasilərimizin bu janra maraq göstərməməsini nə ilə izah etmək olar?

Milli Azadlıq Hərəkatının fəallarından olan millət vəkili Fazil Mustafa "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycan cəmiyyətində yazı ənənəsi çox da dərin vərdişə çevrilməyib: "Daha çox insanlar şifahi dedi-qodu üzərində tarixə olan baxışlarını formalaşdırırlar. Əslində, memuar ayrıca bir mədəniyyətdir. Tarixin müəyyən mərhələsinin yadda qalması, öyrənilməsi üçün vacibdir. Orda təhrif etmədən, obyektif fikirlər olmalıdır. Buna nə dərcədə riayət olunacağı isə yazanın öz vicdanına bağlı olan məsələdir. Memuar kiməsə acıq vermək, kimisə qaralamaq üçün yazılmır. Gələcək nəsillər üçün irs olaraq nəzərdə tutulan bu janra çox da həqarətlə yanaşmağı doğru saymıram. Taleyranın memuarları var, ona gələcək nəsillər üçün nəzərdə tutulan bir irs kimi baxılır. Rusiyada olan bir çox siyasi xadimlərin də memuarları var ki, onlar da böyük maraqla oxunur. Bəzən SSRİ dövrünün memuarları dövrün senzurasına görə istənilən gercəkliyi əks etdirməyə bilər. Amma müsair dövrdə bunun obyektiv yazılması üçün heç bir məhdudiyyət yoxdur. Əslində bu çox faydalıdır. Buna lazımsız bir janr kimi baxmaq doğru deyil. Hesab edirəm ki, hətta nəinki siyasilər, bütün sənət adamları, keçmiş partiya xadimləri də buna həvəs göstərməlidir. Mən onlarla görüşəndə bu tövsiyəni verirəm ki, memuar yazsınlar. Bir sənətkar haqqında hansısa bir epizodun səslənməsi bizim üçün yenilik sayıla bilər. Hesab edirəm ki, ən böyük memuar nümunələrindən biri Həmidə xanımın xatirələridi. İndi təsəvvür edin ki, həmin xatirələr olmasaydı, biz Mirzə Cəlillə bağlı o dövrdəki vacib hadisələrdən xəbərsiz olardıq. Bu irsi qoyub getdiyinə görə bu gün biz özümüzü Həmidə xanımın ruhu qarşısında borclu sayırıq. Məncə, memuar yazmaq çox lazımdır. Kim necə yazacaqsa, o səpkidə də yanaşmanın şahidi olacaq. Faktları təhrif edəcəksə, cavabını alacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ Əfqanıstan və İraqda mülki ölümlərdə günahlandırılan "Blackwater" muzdlularını Venesuelaya göndərir...



**ABŞ-ın xüsusi təhlükəsizlik şirkəti "Blackwater International"ın təsisçisi və prezident Donald Trampın dəstəkçilərindən olan Erik Prinsin Venesuelanın dövlət başçısı Nikola Maduronu devirmək üçün bu ölkəyə xüsusi təhlükəsizlik birliklərinin göndərilməsini təklif etdiyi bildirilib.**

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, İraqda mülki ölümlərdə günahlandırılan təhlükəsizlik şirkətinin şefinin son bir neçə aydır Trampa yaxın şəxslər və sürgündəki venesuelalı müxalifətçilərdən belə bir əməliyyat üçün maliyyə və siyasi dəstək axtarışında olduğu qeyd edilib.

Prins ABŞ və Avropadakı xüsusi görüşlərdə venesuelalı müxalif lider Xuan Guaido üçün 5 min muzdlu əsgər icarəyə götürməsi planını açıqlayıb.

**Mövzunu yaxından izləyən mənbələrdən biri Erik Prinsin aprelin ortalarına qədər görüşlər keçirdiyini bildirib. Ancaq Prinsin Venesuelanın dövlət başçısı Maduronu devirmək üçün necə bir plan təqdim etdiyi və ya necə bir əməliyyat keçirəcəyi ilə bağlı detallar açıqlanmır.**

Ağ Evin Milli Təhlükəsizlik Şurasının sözçüsü Qarret Marqus Prinsin hökumətə Venesuela planı təqdim edib-etmədiyi, ya da belə bir təklif gəldiyi təqdirdə nəzərə alınıb-almayacağına dair sualı cavablandırmaqdan imtina edib.

Venesuelalı müxalif lider Xuan Guaidonun sözçüsü müxalifətin Prinslə əməliyyatları müzakirə etmədiyini deyib. Rodrigez mövzu ilə bağlı digər sualları cavabsız qoyub.

**Amerikan və venesuelalı bəzi təhlükəsizlik ekspertləri isə planın Venesuelada vətəndaş müharibəsinə yol aça biləcəyini və siyasi baxımdan potensial təhlükə olduğunu bildirir.**

Erik Prinsin sözçüləri, ya da yaxın ətrafı bu barədə məlumat verməkdən yayınsa da, mövzunu yaxından təqib edən bir mənbə kəşfiyyat fəaliyyətləri başlayacaq əməliyyatın növbəti mərhələsində Kolumbiya və digər Latın Amerikası ölkələrindən 5 min muzdlu əsgərin Venesuelada yerləşdiriləcək əməliyyatların keçirilməsinin düşünüldüyünü bildirib.

Adı Əfqanıstan və İraqda mülki şəxslərin öldürülməsində hallanan "Blackwater" şirkəti imicini düzəltmək üçün iki dəfə adını dəyişib.

# ÜDM-də sığortanın payına görə Azərbaycan zəif yerdədir...

**Vüqar Bayramov:** *"ÜDM-də sığortanın yığımı üzrə çəkinin az olması səbəblərindən biri əhali arasında bu sistemə inamın aşağı olmasıdır"*

**Sığorta bir sistem olaraq inkişaf etmiş ölkələrdə iqtisadiyyatın mühüm, çox hallarda isə aparıcı və ciddi dəyər yaradan sahələrindən sayılır. Bu sistem fövqəladə hadisələr zamanı əmlak sahiblərinin mənafelərini qoruyur və dövlətin maliyyə sisteminin möhkəmlənməsinə ciddi müsbət təsir göstərir.**

Ötən illər ərzində Azərbaycanın sığorta sisteminin inkişafı ilə bağlı bəzi işlər görülüb. Ölkədə sığorta bazarlarını tənzimləyən qanunvericilik bazası yaradılıb, əhalidə sığorta xidmətlərinə marağın artması üçün müəyyən maarifləndirmə işləri aparılıb. 2018-ci ilə olan məlumata əsasən, ölkədə 21 sığorta şirkəti fəaliyyət göstərir və onlar qeyd edilən il ərzində 728 milyon manat sığorta haqları toplayıb, 240,3 milyon manat sığorta ödənişləri həyata keçiriblər. Bu rəqəmlər ilk baxışda kiçik olmasa da, Azərbaycanın hazırkı iqtisadi imkan və inkişafı ilə müqayisədə elə də yüksək deyil. Bu isə o deməkdir ki, ölkəmizdə sığorta sisteminin həm keyfiyyət, həm də kəmiyyət sarıdan mövcud səviyyəsini qənaətbəxş hesab etmək mümkün deyil. Məsələ ondadır ki, Azərbaycanda sığorta yığımlarının ölkənin ümumdaxili məhsul (ÜDM) istehsalındakı xüsusi çəkisi təxminən 1 faiz ətrafındadır. Hansı ki, bu çox aşağı göstəricidir. Çünki postsovet ölkələrində, Şərqi Avropa ölkələrinin əksəriyyətində həmin göstərici təqribən 2 dəfə yüksəkdir. İnkişaf etmiş ölkələrdə sığorta yığımlarının ÜDM-də payı 4-10 faiz arasında dəyişir. Onu da qeyd edək ki, 5 il əvvəl ÜDM-də sığortanın payı daha da az olub. Belə ki, beş il əvvəl bu 0,5 faiz səviyyəsində olub.

Bütün bunlarla yanaşı, maraqlıdır, Azərbaycanda sığorta yığımlarının ÜDM-də xüsusi çəkisi niyə olduqca aşağı səviyyədədir? Ekspertlər bunun səbəbini nə ilə əlaqələndirirlər?

Məsələyə münasibət bildirən iqtisadçı-ekspert Vüqar Bayramov bunun səbəbini bir sıra faktorlarla əlaqələndirdi. Onun fikrincə, sığorta şirkətlərinin bəzilərinin öhdəliklərə əməl etməməsi əhalinin onlara inamını azaldır: "Bu da, nəticə olaraq, ÜDM-də sığortanın payının az olmasına gətirib çıxarır. Baxmayaraq ki, sığorta sistemi iqtisadiyyatın dayanıqlı inkişafı baxımından çox vacibdir. Bu yöndə ölkədə bir sıra işlər görülüb. Amma son hadisələr göstərir ki, sığorta sistemi hələ də mövcud potensiala uyğun inkişaf etdirilməyib. ÜDM-də sığortanın yığımı üzrə çəkinin az olması səbəblərindən biri əhali arasında bu sistemə inamın aşağı olmasıdır. Bu səbəbdən sözügedən sahədə aşağı göstərici qeydə alınıb. Əhalinin inamı yüksək olsaydı, o zaman ÜDM-də sığortanın payı bu qədər az olmazdı. Təəssüf ki, bəzi hallarda sığorta şirkətləri öhdəlikləri yerinə yetirmirlər. Bu da sığorta şirkətlərinə inamın azalmasına və sahibkarların sığortadan daha az istifadə etmələrinə gətirib çıxarır. Sığortanın əhəmiyyəti barədə sahibkarların və əhalinin məlumatlılığı o qədər də yüksək deyil. Bu məlumatlılığın artırılmasına ehtiyac var. Bunun üçün də fərqli kampaniyalar keçirilməlidir ki, vətəndaşlar sığortanın əhəmiyyətilə bağlı daha yaxından məlumatlana bilsinlər. Başqa bir tərəfdən, sığortalanma ilə bağlı qaydaların dəyişdirilməsi və onun iri supermarketlər tərəfindən həyata keçirilməsinin təmin edilməsinə ehtiyac var. Bu halda, supermarketlərdə çalışan sahibkarların malları və onların məhsullarının praktik olaraq sığortalanması həyata keçirilə bilər. Bu da, nəticə etibarilə, sığortanın daha geniş yayılmasına rəvac verəcək. Xüsusilə də yanğın və digər fövqəladə hallarda ziyanın sığorta şirkətləri tərəfindən ödənilməsinə gətirib çıxarar. O baxımdan bazarda rəqabətin gücləndirilməsinə ehtiyac var. Hesab edirəm ki, bu vacibdir. Problem ondadır ki, sığorta bazarında rəqabət zəifdir. Sığortadan istifadə vacibdir. Sahibkarların ondan istifadəsi xüsusən qeyri-neft sektorunda gözlənilməyən ziyanların sığorta şirkətləri tərəfindən ödənilməsi və nəticədə onların bu tip risqlərdən qorunmasına gətirib çıxara bilər".




***Vidadi ORDAHALLI***

# Mərkəzi Bank 2018-ci ildə mənfəətsiz işləyib?




**Rəsul Cahangirli:** *"Transferlər edilmədiyinə görə MB-nin mənfəəti olmayıb və bank 2018-ci ili zərərlə başa vurub"*

**Mərkəzi Bank 2018-ci il üçün maliyyə hesabatını açıqlayıb. 2016-2017-ci illərdə mənfəəti hesabına 6.6 milyard manat dövlət büdcəsinə köçürən MB 2018-ci ildə dövlət büdcəsinə köçürmə etməyib. Səbəb odur ki, artıq bankın mənfəəti yoxdur.**

Hesabatdan o da məlum olub ki, MB-nin cəmi aktivləri bu il yanvarın 1-nə 22 068,979 milyon manat təşkil edib. Bu da ötən il yanvarın 1-i ilə müqayisədə 2,5 faiz azdır. MB-nin aktivlərinin 16 337,898 mln. manatını borc qiymətli kağızları (1 il bundan əvvəl olmayıb), 4 894,585 mln. manatını pul vəsaitləri və onların ekvivalentləri (illik müqayisədə 9,2% az), 361,778 mln. manatını Beynəlxalq Valyuta Fondu ilə hesablaşmalar (2,4% az), 310,867 mln. manatını isə banklara verilmiş kreditlər (22,45% az) təşkil edib.

O da məlum olub ki, 2018-ci ildə MB-nin cəmi öhdəlikləri 2,8% azalaraq 17 611,517 mln. manat, o cümlədən, dövriyyədə olan əskinaslar və sikkələr 2,75% artaraq 8 364,129 mln. manat, rezident bankların qısamüddətli depozitləri 23% azalaraq 3 378,509 mln. manat, kredit təşkilatları qarşısında öhdəliklər 36,8% artaraq 2 832,777 mln. manat, hökumət idarələri qarşısında öhdəliklər 5,7% artaraq 1 617,684 mln. manat, buraxılmış borc qiymətli kağızlar isə 9,2% artaraq 1 005,552 mln. manat, qurumun cəmi kapitalı isə 1,2% azalaraq 4 457,462 mln. manat olub.

Son nəticədə qurum 2018-ci ili 60,316 mln. manat zərərlə başa vurub. Halbuki, MB 2017-ci ildən 3,5 milyard manat mənfəətlə çıxmışdı.

*"Bank rəhbərliyi çalışmalıdır ki, çevik maliyyə siyasəti yeridib yaranan risqləri vaxtında önləsin"*

Maraqlıdır, bunun səbəbi nə ilə bağlıdır?

Məsələyə aydınlıq gətirən ekspert Rəsul Cahangirlinin sözlərinə görə, bunun iki başlıca səbəbi var: "Səbəb odur ki, əvvəlki illərdə MB-nin hesabına Dövlət Neft Fondundan böyük həcmdə transferlər edilib. Həmin illərdə MB-nin 6.6 milyard manatlıq böyük məbləğdə mənfəətinin yaranması 2 mənbə hesabına formalaşıb. Bunlar devalvasiya nəticəsində valyuta aktivlərinin yenidən qiymətləndirilməsi və Neft Fondundan köçürmələrdir. Məhz bunların sayəsində MB-nin mənfəəti yaranıb. Xüsusən də qeyd etdiyim kimi, Neft Fondunun transferləri bu məsələdə mühüm rol oynayıb. Nəticədə MB 2016-2017-ci illərdə əldə etdiyi mənfəətin 6.6 manatını dövlət büdcəsinə köçürüb. Onu da qeyd edim ki, MB-nin sözügedən köçürmələri əsasən dövlət şirkətlərinin ödənilməyən borclarının qaytarılmasına yönəldilib. Çünki dövlət şirkətlərinin bununla bağlı çox böyük borcu yaranmışdı. Artıq transferlər olmadığına görə MB 2018-ci ildə dövlət büdcəsinə köçürmə edə bilməyib. Bu səbəbdən MB-nin mənfəəti olmayıb və bank 2018-ci ili zərərlə başa vurub. Hesab edirəm ki, MB bu sahədə fəaliyyətini daha da təkmilləşdirməlidir. Bank rəhbərliyi çalışmalıdır ki, çevik maliyyə siyasəti yeridib yaranan risqləri vaxtında önləsin. Düşünürəm ki, bu çox vacib məqamlardan biridir".

***Vidadi ORDAHALLI***

# Son orfoqrafiya lüğətini hazırlayanlar cəmiyyətdən gələn səsləri nə qədər nəzərə aldılar...

**Azərbaycan dilinin müasir dövrdə inkişafı, eyni zamanda da onun işləkliyinin bütün sferalarda təmin edilməsi olduqca vacibdir. Heç şübhəsiz ki, burada dilin norma və qaydalarının da bitkin şəkildə formalaşdırılması əsasdır. Müasir dövrdə "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nin hansı formada hazırlanması, milli və alınma sözlərin yeni qaydalarda yazılması məsələsi aktual problemlərdən biri kimi diqqəti cəlb edirdi.**



*"Bu lüğətdə, birmənalı olaraq, azərbaycançılıq məfkurəsi, Azərbaycan tələffüzü əsas götürüldü"*

***İsmayıl Məmmədov:** "Yeni lüğətdə ictimaiyyətin təklif etdiyi məsələlər 80 faiz nəzərə alınıb"*

Əvvəlki dövrlərdə hazırlanan "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ndə bir sıra ciddi problemlər vardı və bu ən çox özünü alınma sözlərin yazılışında göstərirdi. Bir də bu lüğətlərdə mövcud olan ciddi problemlərdən biri dilimizə daxil olan yeni sözlərin öz əksini tapmaması idi.

Bildiyimiz kimi, artıq yenilənmiş "Azərbaycan dilinin orfoqrafiya lüğəti" hazırlanıb. Onu da bildirək ki, son dövrlər ən çox müzakirə edilən və barəsində müxtəlif fikirlər səsləndirilən elə "Azərbaycan dilinin orfoqrafiya lüğəti" idi. Məlum olduğu kimi, artıq Azərbaycan dilinin yeni orfoqrafiya normaları bir müddət əvvəl Nazirlər Kabineti tərəfindən təsdiqlənib. Bildirək ki, 69 maddədən ibarət olan orfoqrafiya lüğətinin layihəsi geniş ictimai müzakirəyə çıxarılmışdı və lüğətlə bağlı bir sıra alimlər, dilçilər, ziyalılar təkliflər irəli sürmüşdülər. Nazirlər Kabineti tərəfindən Azərbaycan dilinin yeni orfoqrafiya normaları təsdiqləndikdən sonra da orada yer alan bəzi sözlərin yazılışı ilə əlaqədar mübahisə doğuran fikirlər mətbuatda yer almağa başlayıb.

Qeyd edək ki, Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu mətbuata bildirib ki, Azərbaycanda yeni hazırlanan orfoqrafiya lüğətinə 4000 yeni söz daxil edilib. O, həmçinin, bildirib ki, Azərbaycan dilinin son orfoqrafiya lüğəti 2013-cü ildə çap edilib. Həmin dövrdən sonrakı 6 il ərzində dilimizə daxil olan yeni sözlər cəmlənərək yeni lüğətə daxil edilib. M.Nağısoylunun sözlərinə görə, ümumilikdə, yeni lüğətdə 112 minə yaxın söz cəmlənib.

Hazırda lüğət üzərində redaktə işlərinin aparıldığını deyən akademikin sözlərinə görə, mayın sonunda yeni orfoqrafiya lüğətinin hazırlanması prosesinin yekunlaşması və çap üçün təqdim edilməsi nəzərdə tutulur. O vurğulayıb ki, Nazirlər Kabineti tərəfindən Azərbaycan dilinin yeni orfoqrafiya normaları təsdiqləndikdən sonra lüğətə həmin normalar əsasında yazılaraq daxil edilən sözlərin sayı o qədər də çox deyil: "Yeni normaları biz əvvəldən nəzərə almışdıq. Ona görə də yeni normaların təsdiqlənməsi yeni lüğətin hazırlanmasına və lüğətdə ciddi dəyişikliklərin edilməsinə təsir göstərməyib".

Artıq rəsmi şəkildə təsdiqlənən "Azərbaycan dilinin orfoqrafiya lüğəti" hazırlanarkən ictimaiyyət tərəfindən səsləndirilən təkliflərə nə dərəcədə yer verilib? Lüğət hazırlanarkən ictimai təkliflər nəzərə alınıbmı?

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Tətbiqi dilçilik şöbəsinin müdiri, Dövlət Dil Komissiyasının üzvü, professor İsmayıl Məmmədov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, əvvəlki dövrlərlə müqayisədə yeni hazırlanan lüğətdə əsasən ictimaiyyətin təkliflərinə yer verilib. "Bu lüğət mənim rəhbərlik etdiyim şöbə tərəfindən hazırlanıb. Yeni lüğətdə ictimaiyyətin təklif etdiyi məsələlər 80 faiz nəzərə alınıb. İctimai müzakirələr ona görə keçirildi ki, biz bu məsələdə ictimai rəyi öyrənək. Ancaq nəzərə alınmayan bəzi təkliflər də oldu. Çünki bəziləri təklif edirdilər ki, məsələn, Əsgər-Əskər, Ələsgər-Ələskər kimi yazılmalıdır, lakin biz bunu qəbul etmədik və həmin sözlər əvvəlki qayda ilə verildi. Bəzi birhecalı sözlərdən, məsələn, boss, kross və s. sözlərdən "s" hərfinin biri çıxarılıb. Biz "Azərbaycan dilinin orfoqrafiya lüğəti"ni milliləşdirdik. Bizim dilin lüğəti baş dillərin lüğət muzeyi deyil ki, onlar necə yazır, biz də elə yazaq. Deyirdilər ki, Vilyam adını Uilyam kimi qeyd etmək lazımdır, ancaq bunu etmədik. Kənar təsirləri qəbul etmədik. Bu lüğətdə, birmənalı olaraq, azərbaycançılıq məfkurəsi, Azərbaycan tələffüzü əsas götürüldü. Bizdə sözlər fonetik prinsiplə yazılır. 2004-cü ildə nəşr edilən lüğətdə qaydalar tam şəkildə yox idi. 1975-ci ildə çap olunan orfoqrafiya lüğəti isə 116 paraqraf idi. Bu dəfə isə əvvəlki lüğətlərdə yer almayan bütün məsələləri nəzərə aldıq. Məsələn, əvvəlki qaydalarda, normalarda daha çox alınma sözlərin yazılışından danışılırdı. Ancaq burada əsasən milli sözlərə diqqət yetirildi və lüğətə milli sözlərimizlə bağlı bir neçə maddə əlavə etdik. Lüğəti milliləşdirdik. Çünki lüğət yalnız alınma sözlərin yazılışı ilə bağlı deyil, bütün sözlərə aiddir" - deyə İ.Məmmədov qeyd etdi.

*İradə SARIYEVA*



# Dərman zəhərlənmələri artır - çirkli biznes marağı, ya təxribat...

***Adil Qeybulla:** "Həkim nəzarətində olmayan dərmanların qəbul edilməsi qadağan olunmalıdır"*

***Eyyub Hüseynov:** "Dərman zəhərlənmələri çoxluğuna görə qida zəhərlənməsindən sonra ikinci yerdə dayanır"*

**Statistik məlumatlara görə, bu gün dünyanın hər yerində insanlar bir il ərzində milyon tonlarla müxtəlif kimyəvi dərman preparatları qəbul edirlər. Məsələn, ABŞ-da əhalinin gün ərzində qəbul etdiyi aspirinin çəkisi 20-30 tonla ölçülür.**

Ancaq dərmanların qəbulu heç də həmişə effekt vermir. Misal göstərdiyimiz elə bu ölkədə dərmanlar hər il 125 min insanı öldürür. Dərman zəhərlənmələrinə, eləcə də bu zəhərlənmələr nəticəsində baş verən ölüm hadisələrinə dünyanın müxtəlif ölkələrində rast gəlinir. Həmçinin, ölkəmizdə də dərmandan zəhərlənmə halları baş verir. Açıqlanan statistik rəqəmlərə əsasən, ötən il Azərbaycanda kimyəvi zəhərlənməyə məruz qalan insanların sayı artıb.

Bakı Şəhər Baş Səhiyyə İdarəsinin baş toksikoloqu, Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinin həkimi, dosent İsmayıl Əfəndiyev media nümayəndələrinə açıqlamasında qeyd etdi ki, 2017-ci ildə Azərbaycanda 2016, 2018-ci ildə isə 2169 nəfər kimyəvi zəhərlənməyə məruz qalıb. Kimyəvi zəhərlənmələr arasında birinci yeri dərmanlardan zəhərlənmələr tutub. Ötən il kimyəvi zəhərlənməyə məruz qalanların 778 nəfəri və ya 36,9 faizi dərmandan zəhərlənib. Zəhərlənməyə səbəb olan dərmanlar arasında sedativ tərkibli, yəni əsəbə qarşı dərmanlar üstünlük təşkil edib. Dərman zəhərlənmələrinin 40 faizə yaxını sedativ tərkibli dərmanların qəbulu ilə əlaqədardır.

İnsanlar bu vasitələrdən sağlamlığa nail olmaq, xəstəlikdən can qurtarmaq üçün istifadə etsələr də, əks nəticə ilə qarşılaşırlar. Yəni bu dərmanlar onları sağaltmaq əvəzinə, onlara yeni problemlər yaradır. Dərman zəhərlənmələrinin nə səbəbdən artdığını öyrənmək üçün mütəxəssislərə müraciət etdik.

Həkim-ekspert, professor Adil Qeybulla bildirdi ki, dərman preparatı müəyyən bir dozada müalicəvi effektə konkret təsiri hesablanmış vasitədir: "Yüksək dozada dərman isə toksiki maddə kimi təsir göstərir. Bəzən dərman zəhərlənmələrinə səbəb olan amillərdən biri dərmanın normadan çox qəbul edilməsidir. İkincisi, dozanın çəkiyə adekvat olması məsələsi də var. Yəni, istənilən halda, bədən çəkisinin hər kiloqramına dərman dozasının yüksək olmasından söhbət gedir. Digər bir məsələ isə dərman preparatlarının tam təmizlənməsi, onların tərkibində olan qatqıların, dərman əlavələrinin özünün zərərsiz olmasıdır. Bu gün Azərbaycana xeyli keyfiyyətsiz dərman daxil olur. Dərman bazarında çox xaotik bir vəziyyət hökm sürür".

A.Qeybullanın sözlərinə görə, mənşəyi, istehsal yeri müəmmalı olan dərmanların təsirinə və təhlükəsizliyinə inam yoxdur: "Dərmanın qəbul edilməsi ancaq həkim nəzarətində olmalıdır. Həkim resepti və nəzarəti olmadan dərmanların qəbul edilməsi qadağan olunmalıdır. Çünki dünyanın hər yerində bu cürdür. Bizdə xəstə gedir aptekdən istənilən dərmanı kimdənsə eşidib alıb içir. Sonra da bu cür problemlər yaranır. Hər bir dərman zəhərlənməsi halı ayrıca araşdırılıb tədqiq olunmalıdır. Yalnız bundan sonra ümumi bir qərar vermək mümkündür".

Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov qeyd etdi ki, dərman zəhərlənmələri çoxluğuna görə qida zəhərlənməsindən sonra ikinci yerdə dayanır: "Biz bilməliyik ki, cəmiyyətdə həmin problem yarandıqda onu insanlar yox, qanunlar həll edir. Belə ki, problemin qarşısını almaq üçün sertifikasiya verən orqanla əhalinin sağlamlığının keşiyində dayanan orqan bir-birindən ayrılmalıdır. Sertifikat verən orqan müstəqil olmalıdır. Ekspertiza müstəqil olmalıdır. Bu saat ekspertizaların, sertifikasiyaların hamısı dövlət monopoliyasındadır. İnsanların sağlamlığı keşiyində duran orqan da dövlət qurumudur. Ona görə maraqların konflikti var. Əgər həmin qurumlar ayrılsalar, düşünürəm ki, bu problemlərin qarşısı xeyli alınar".

*Günel CƏLİLOVA*

# Xatırlayırıq ki... - Polkovnik-leytenant İlham Rzayev...

**"Atam da təbiəti, yaşıllığı çox sevirdi. Çünki doğulub boya-başa çatdığı yurd yerində göz açıb təbiətin mözücələrini görmüşdü. Kiçik yaşlarından dağlara, dərələrə, buz bulaqlara könlünü vermişdi. Tanıyanlar yaxşı bilir, o, çox duru adamıydı. İlk baxışdan sərt, qaradinməz görünsə də ürəyi yuxa idi"...**

Xətai Rayon Mühafizə İdarəsinin rəis müavini, polis polkovnik-leytenantı İlham Rzayev əlindəki tingi torpağa sancıb dərindən bir ah çəkdi...

Həmişə müşahidə etmişəm və şahidi olmuşam. Yaxını, əzizi haqqında kimsə keçmiş zamanda danışmır və danışmaq da istəmir. Hərgah bəlkə də yoxluğu ilə barışıb. Bilir ki, təbiət aldığını bir də geri qaytarmır. Elə insan da yaranışdan torpağa bənzəyir. Hər il fəsillənir. Yaz olur, yaya dönür, payız kimi kövrəkləşir və...

Ömrün qışına kim tab edibki?

Düz 17 il keçib o gündən. Doğmaları, dostları hamı "kaş ki, yaşasaydı" deyir. Ömrün son ucunun ölüm, əcəlin vaxtlı-vaxtsız gəldiyini hər birimiz bilsək də unutqanlığımıza (insan "unutqan" deməkdi) güc gələ bilmirik. Bəlkə də bu ilahinin sirridir ki, ölümü xəbərsiz qarşılayırıq.

Elə haqqında söhbət açacağım, xatirələrdə, yaddaşlarda özünə yer eləmiş polis polkovniki Eldar Rzayevi doğum günündə xatırlamaq da Tanrının işidir. Hər insanın taleyi, zamanı, olduğu kimi hər yazının da taleyi və zamanı var. Haqqında ilk tanışlığım bir şəkildən



başladı. Həmkarımın "atamdır",-deməsinə bir daha əmin oldum ki, polisin oğlu gərək polis olsun. "Allah can sağlığı versin",- deyəndə:"O, indi haqq dünyasındadır",-fikrindən sonra ortaya ani bir sükut çökdü...

Atasızlığın, anasızlığın nə olduğunu o dərdi yaşayanlar, illər keçsə belə xatırlayanda nisgili yanağını yandıranlar daha yaxşı bilir.

Bəlkə də onun doğum günü ilə dünyaya əbədi gözünü yumması arasındakı gün fərqi sizi heyrətləndirəcək. 1948-ci il mayın biri və 2002-ci ilin mayın ikisi...

Polis polkovniki Eldar Rzayev Vedi mahalında dünyaya göz açmışdı. Soydaşlarımızın tarixi torpaqlarımızdan, dədə-baba yurdlarımızdan deportasiya olunması hökmü veriləndə onların ailəsi də Azərbaycana köçürülüb. Göygöldə məskunlaşıblar. Məktəbi bitirdikdən sonra 1967-ci ildə hərbi xidmətə yollanıb. Hündür, qarabuğdayı,tökmə bədənli Azərbaycan övladının hərbi dəniz donanmasında xidmət etməsi qeyri-millətlərə qəribə gəlsə də o, sübut edib ki, kürəyini dağlara söykəyən oğullar ucsuz-bucaqsız dənizlərin də dilini yaxşı bilir, tufandan, dəli



dalğalardan qorxmurlar.

Hərbidən tərxis olunduqdan sonra bir müddət fəhlə işləyib. Arzusunu gerçəkləşdirməkdən ötrü o, atasının dostu ilə Xanlar RPŞ-yə gəlib polis olmaq istədiyini bildirir. Rəis onu başdan-ayağa süzdükdən sonra deyir ki, səndən polis olmaz. Gənc Eldar pərt olsa da atasının dostu üzünü rəisə tutub: "Vaxt gələcək ki, bu oğlan buranın rəisi olacaq",- deyib çıxırlar. Sonra Ukraynaya üz tutur. Burada daxili işlər orqanlarına qəbul olunur. Polis serjantı olsa da ən çətin tapşırıqların öhdəsindən gəlir. Qısa zaman kəsiyində xidmət etdiyi ərazidə sakinlərin rəğbətini və etimadını qazanır. Ona güvənir, etibar edirlər. Kiyevdə Ali Milis Məktəbindən məzun olub. Marqaneç şəhərində zabit kimi xidmətə başlayıb. Burda da təşkilatçılığı, bilik və bacarığı ilə seçilib. Öz millətini, doğulduğu yurdu sevir, bir sözlə, azərbaycanlı olmağı ilə fəxr edirdi. Kabinetindəki şəklə görə bəzən köntöy baxışlarla da rastlaşmışdı. Açıqdan-açığa olmasa da, uzaqdan-uzağa düşmənçilik edənlər də vardı.

Məlum hadisələr başlayanda xidmətini Azərbaycanda davam etdirib. Zərdab Rayon Polis Şöbəsində Yetkinlik Yaşına Çatmayanlarla Profilaktiki İşin Təşkili bölməsində inspektor vəzifəsinə təyin olunub. İnsanlarla ünsiyyət qurması, uşaqların zərərli vərdişlərə qurşanmaması üçün keçirdiyi maarifləndirmə tədbirləri rəhbərliyin diqqətini çəkir. Çəkilən zəhmət, təşkilatçılıq, vətənə və dövlətə sadiqlik bəhrəsini verir. Binəqədidə, Xətaidə və Qaradağda müxtəlif vəzifələrdə çalışır. Göygölə rəis təyin olunduğu gün isə sevincinin həddi-hüdudu olmur. O, həm də verdiyi sözə əməl etmişdi...

Müstəqilliyimizin ilk illərində daxili işlər orqanlarında rəhbər vəzifələrdə işləyənlərlə, nə yolla olursa-olsun ulu öndərin Azərbaycana gəlişini əngəlləyənlərlə baş-başa gəlir. Onu Heydər Əliyevçi olduğuna görə sevməyənlərin arzusu gözündə qalır və qurtuluşuna qovuşan xalqımız kimi o da rahat nəfəs alır. Bilir ki, bu orqan da yarıtmazlardan, qeyri-peşəkarlardan təmizlənəcək və ulu öndərimiz daha layiqli şəxsi dövlətimizin bel sütunlarından biri olan bu struktura rəhbər təyin edəcək. Bu, belə də olur. Vətənini, xalqını canından əziz tutan, zəngin təcrübəsi, ən əsası, sədaqəti ilə örnək olan Ramil Usubov nazir təyin edilir. DİO-da yeni bir dönəm başlayır. Peşəkarlar irəli çəkilir, bir zamanlar sıralarımızdan uzaqlaşdırılanlar yenidən bərpa olunur.

Eldar Rzayev hər zaman DİN rəhbərliyinin diqqət və qayğısını hiss edib. Göyçayda və Yasamalda rəis vəzifəsinə irəli çəkilib...

2001-ci ildə xidməti otağında halı pisləşir və həkimlər artıq gec olduğunu deyirlər. O, 2002-ci il mayın 2-də dünyaya gözlərini əbədi yumur. Nəvəsi Eldarı görsə də, toyunu görmək ona nəsib olmur.

Yeri gəlmişkən, polis polkovniki Eldar Rzayev ədəbiyyatla, teatrla dərindən maraqlanıb. Rusiyanın məşhur aktyoru Yevgeniy Pavloviç Leonovla möhkəm dost olublar...

Ondan doğmalarına qalan ağlı-qaralı şəkillər və bir də acılı-şirinli xatirələrdir.

***Hafiz Hacxalıl***




# AQTA sahibkarlara dələduzlarla bağlı xəbərdarlıq edib

**Son günlər Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) adından istifadə edərək sahibkarlıq subyektlərində qanunsuz yoxlamaların aparılması və müxtəlif tələblər irəli sürməklə vətəndaşlardan hər hansı saxta sənəd və qəbz qarşılığında pul alınması halları ilə bağlı faktlar aşkar olunub. Baki-xeber.com xəbər verir ki, bu barədə AQTA məlumat yayıb.**

AQTA bildirir ki, həmin hadisələr Agentlik tərəfindən ictimailəşdirilməklə yanaşı, qanunvericilik çərçivəsində tədbirlərin görülməsi üçün hüquq-mühafizə orqanlarına göndərilib. Buna baxmayaraq, hələ də müxtəlif bəhanələr altında sahibkarlardan saxta sənədlər təqdim etməklə qanunsuz olaraq ödəniş tələb edən şəxslərlə bağlı məlumatlar daxil olmaqdadır: "Agentlik qida sahəsində fəaliyyət göstərən sahibkarların diqqətinə çatdırır ki, qurumun fəaliyyət istiqamətləri çərçivəsində aparılan istənilən baxış, monitorinq, yoxlama və s. tədbirlər zamanı yerində hər hansı ödənişin olunması mexanizmi mövcud deyil. Eyni zamanda, Agentliyin bu sahədə fəaliyyətini və sahibkarlıq subyektləri ilə birbaşa təması yalnız xüsusi qruplarda təmsil olunan müfəttişlər həyata keçirir. Həmin müfəttiş qruplarından kənar heç bir şəxs və AQTA əməkdaşı müvafiq sahə üzrə sahibkarlıq sturukturuna daxil ola və hər hansı yoxlama həyata keçirə bilməz.

Qida sahəsində fəaliyyət göstərən sahibkarlardan bir daha xahiş olunur ki, müxtəlif adlar altında yoxlama tədbirləri ilə sahibkarlıq subyektinə daxil olan istənilən şəxsdən, eləcə də AQTA əməkdaşından yoxlamanın keçirilməsinə dair aşağıdakı sənədləri tələb etsinlər:

Yoxlamanın aparılmasına dair icazə sənədi - Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin yoxlamanın aparılmasına dair vahid məlumat reyestrindən çıxarış

Həmin sahibkarlıq subyektində müvafiq yoxlamanın aparılması ilə bağlı vəzifəli şəxs tərəfindən qəbul edilmiş qərarın əsli

Yoxlamanı həyata keçirən müfəttişlərin xidməti vəsiqəsi

Yoxlamaya dair əvvəlcədən təsdiq edilmiş yoxlama suallarının siyahısı

Sahibkarın hüquq və vəzifələrinə dair şifahi məlumatın yoxlayıcı tərəfindən izah olunması

Yoxlamanı həyata keçirən müfəttişlərin ad və soyadlarının yoxlamanın aparılması ilə bağlı vəzifəli şəxs tərəfindən qəbul edilmiş qərarda öz əksini tapması

**Sahibkarların nəzərinə çatdırılır ki, hər hansı tələb və ya xidmət əsasında sahibkarlıq subyektinə daxil olaraq yerində ödəniş tələb edən şəxslər Agentlik əməkdaşları deyil və istənilən halda yerində ödəniş etməsinlər. Bununla bağlı şübhəli məqam olduğu təqdirdə dərhal hüquq-mühafizə orqanlarına və ya Qida Təhlükəsizliyi Agentliyinin 1003 saylı "Qaynar xətt"inə məlumat versinlər".**

# Bakıda məşhurların yaşamış olduğu binalardakı xatirə lövhələri hələ kiril əlifbasındadır...

*"Barelyeflərdəki yazılara toxunmadan onun yanına, yaxud alt hissəsinə yeni lövhə vurub həmin yazıları latın qrafikası ilə də orada əks etdirmək lazımdır"*

**Bütün dünyada görkəmli elm, mədəniyyət, eləcə də ictimai-siyasi xadimlərin xatirəsinin əbədiləşdirilməsi ənənəsi mövcuddur. Azərbaycanda da bu proses gedib və bu gün də davam etməkdədir. Azərbaycan elmi, ədəbiyyatı, tarixi, mədəniyyəti, ictimai-siyasi həyatında mühüm rol oynayan şəxsiyyətlərin xatirəsi bir neçə formada əbədiləşdirilib.**

Həm Sovet dövründə, həm də indi belə mühüm şəxsiyyətlərin sağlığında yaşadığı binalara, evlərə xatirə lövhələri vurulub. Son dövrlər vurulan xatirə lövhələri latın qrafikası ilə yazılsa da, Sovet dövründə vurulan lövhələrdə yazılar hələ də kiril əlifbası ilə qalmaqdadır. Bəzi lövhələr var ki, uzun illər bundan əvvəl qoyulduğu üçün hətta üzərindəki yazıları oxumaq elə də asan deyil.

Sovet dövründə böyük şəxsiyyətlərin yaşadıqları binalara vurulan xatirə lövhələri kiril əlifbası ilə olduğu üçün onun üzərindəki yazıları müasir gənclər, uşaqlar oxuya bilmir. Şəhərimizə gələn turistlər də o lövhələrə diqqət yetirsələr də, maraqla tamaşa etsələr də, yazıları oxuya bilmirlər.

**Kiril əlifbası ilə mövcud olan xatirə lövhələrinin yenilənməsi, onların üzərindəki yazıların latın əlifbası ilə yazılmasına zərurət var.**

Ekspertlər qeyd edir ki, yalnız Bakıda onlarla belə xatirə lövhəsi var və onların birdən-birə kütləvi şəkildə dəyişdirilməsi həm zaman tələb edir, həm də külli miqdarda vəsait. Onların sözlərinə görə, xatirə lövhələrinin hər biri bahalı metallardan hazırlandığı üçün onlar dəyişdirilərkən mütləq həmin metaldan istifadə edilməlidir.

Filologiya üzrə fəlsəfə doktoru, tanınmış şair-publisist Qiymət Məhərrəmlinin sözlərinə görə, bu gün Bakıda nəinki kiril əlifbalı xatirə lövhələri, hətta bəzi köhnə parklarda, ərazilərdə Sovet dövründən qalma elementlər var. O hesab edir ki, ümumiyyətlə o dövrə aid olan nümunələr də tariximizin bir parçası olduğu üçün onları silib atmaq olmaz, sadəcə, həmin nümunələrin Sovet dövrünü əks etdirməsi ilə bağlı maarifləndirici lövhələr vurulmalıdır. "Sovet dövründə Bakıda bir sıra görkəmli elm, mədəniyyət, dövlət xadimlərinin yaşadığı binalara vurulan xatirə lövhələrinin yazılarının latın qrafikası ilə əvəzlənməsi yaxşı olardı. Doğrudur, onların dəyişdirilməsi bir qədər mübahisə yaradacaq. Bir sıra adamlar deyəcəklər ki, o lövhələr bizim tariximizdir, Sovet dövrü abidələridir. Ancaq deyim ki, bu lövhələrin üzərindəki yazıları indiki gənclər, uşaqlar oxuya bilmir. Onlar bilmək istəyir ki, bu şəxsiyyətlər kim olub, onların elm, mədəniyyət və s. sahələrdə nə kimi fəaliyyətləri olub ki, binalara xatirə lövhələri vurulub. Turistlər özləri də o yazıları oxuya bilmir. Hesab edirəm ki, Sovet dövrünün əlifbası ilə üzəri yazılan xatirə lövhələrindəki yazılar latın qrafikası ilə əvəz edilməlidir ki, onu müasir insanlar da oxuya bilsin. Məsələ burasındadır ki, Azərbaycanda bir neçə cür xatirə lövhələri var. Hətta keçən əsrin 40-50-ci illərində mövcud olan yazılış qaydası ilə də xatirə lövhələrinə rast gəlmək olur. Düzdür, bu tarixdir. Ancaq bu tarixin müasir nəsil üçün də maraqlılığı təmin edilməlidir. Biz elə təqdimat üsulları seçməliyik ki, onlar bundan bəhrələnə bilsinlər"-deyə Q.Məhərrəmli qeyd etdi.




***Buludxan Xəlilov:** "Kiril əlifbası ilə mövcud olan xatirə lövhələrini çıxarıb onun yerinə latın qrafikalı lövhə asmağın özü tarixə kölgə salmaq, tarixi silmək deməkdir"*

***Qiymət Məhərrəmli:** "Sovet dövründə Bakıda bir sıra görkəmli elm, mədəniyyət, dövlət xadimlərinin yaşadıqları binalara vurulan xatirə lövhələrinin yazılarının latın qrafikası ilə əvəzlənməsi yaxşı olardı"*

Azərbaycan Dövlət Pedaqoji Universitetin (ADPU) kafedra müdiri, tanınmış dilçi alim, professor Buludxan Xəlilovun isə məsələyə mövqeyi fərqlidir. "Əvvəla, o xatirə lövhələrinin hər biri tarixdir. O lövhələrin üzəri isə konkret tarixi dövrdəki mövcud kiril əlifbası ilə yazılıb. O xatirə lövhələri həm ölkəmizin vətəndaşları, həm də xaricdən ölkəmizə gələnlər üçündür. Bu mənada, bu gün bizim rəsmi əlifbamız latın qrafikasıdır. Ona görə də, barelyeflərdəki yazılara toxunmadan onun yanına, yaxud alt hissəsinə yeni lövhə vurub həmin yazıları latın qrafikası ilə də orada əks etdirmək lazımdır. Mən o lövhələrin üzərindəki kiril əlifbası ilə yazılan sözlərin silinməsinin tərəfdarı deyiləm, kiril əlifbasını silmək lazım deyil. Ona görə ki, bu bir tarixdir. Bilsinlər ki, bizim əlifba tariximizdə kiril əlifbası da olub və həmin barelyeflər, xatirə lövhələri qoyularkən ölkədəki əlifba kiril əlifbası olub. İndi isə mövcud əlifbada həmin şəxsiyyətlərin soyadı, adı, atasının adı, təvəllüdü və ona aid məlumatlar verilməklə əlavə xatirə lövhəsi hazırlanmalıdır. Ancaq kiril əlifbası ilə mövcud olan xatirə lövhələrini çıxarıb onun yerinə latın qrafikalı lövhə asmağın özü tarixə kölgə salmaq, tarixi silmək deməkdir. Xatirə lövhələri tarixi yaşadan abidələrdir. Bu abidələrdə həm də xalqımızın əlifba tarixi yaşayır"-deyə B.Xəlilov qeyd etdi.

*İradə SARIYEVA*



***Könül Vaqifqızı:** "Bu gün bölgələrdə psixoloq kimi çalışanların sayı azdır"*

# Bölgə ümumtəhsil məktəblərində psixoloq ştatlarında çoxlu vakansiya olduğu deyilir...

*"Rayonlarda, ən ucqar kəndlərdə belə məktəbdə psixoloq ola bilər, amma onların çoxu birillik ixtisasartırma kursunu keçən müəllimlərdir"*

**Azərbaycanın ümumtəhsil məktəblərində yüzlərlə vakant psixoloq ştatı var. İş yeri olsa da, bu sahədə çalışmaq istəyənlərin sayı azdır. Paytaxt Bakı ilə müqayisədə bölgələrdə mövcud olan orta məktəblərdə psixoloq ştatı formaldır.**

Aparılan araşdırmalara görə, ümumtəhsil məktəblərində bir sıra rayonlarda psixoloq ştatı olsa da, psixoloq fəaliyyət göstərmir. Məlumat üçün bildirək ki, Şabran rayonunun 34 təhsil müəssisəsində psixoloq ştatı olsa da, cəmi 18-də psixoloq fəaliyyət göstərir. Hər il vakant göstərilən digər 14 məktəbdə də psixoloqa ehtiyacın böyük olduğu deyilir. Maraqlıdır, bölgələrdəki orta məktəblərdə psixoloq kimi çalışmaq istəyənlərin sayı azdır.

**Məsələ ilə bağlı fikir bildirən psixoloq Könül Vaqifqızı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, bu gün bölgələrdə psixoloq kimi çalışanların sayı azdır:** "Rayonlarda, ən ucqar kəndlərdə belə məktəbdə psixoloq ola bilər. Amma onların çoxu bir illik ixtisasartırma kursunu keçən müəllimlərdir və çoxu iş olmadığından məktəbdə boş vakansiyaya uyğun ixtisasartırma kursuna göndərilib. Belə psixoloqların fəaliyyəti məktəblərdə hiss olunmur. Əsas problem, onların ixtisasartırma kursundan sonra peşəkar psixoloq kimi yetişdirilməsidir. Ona görə də, psixoloqların hazırlanmasına diqqət yetirilməlidir". Həmsöhbətimiz onu da vurğuladı ki, məktəblərdə psixoloq kimi çalışanların çoxunun psixologiyadan anlayışı belə yoxdur. Məktəblərdə psixoloq ştatı ilə bağlı çoxsaylı problemlər var. Məktəblərdə psixoloq çatışmazlığı var. Elə məktəblər var ki, psixoloq fəaliyyət göstərsə də, məktəbdə təhsil alan şagirdlərin sayı ilə müqayisədə, psixoloq ştatı üzrə çalışanların sayı çox azdır. Bəziləri bir illik ixtisasartırma kursunu bitirdikdən sonra məktəbdə psixoloq kimi çalışmağa başlayır. Elə məktəblərimiz var ki, orada psixoloq var, amma psixoloji xidmət yox səviyyəsindədir. Ona görə də, məktəblərdə tez-tez müəllim-şagird, müəllim-valideyn, valideyn-uşaq konfliktləri yaranır.

**albuki, məktəbin psixoloqu uşaqlarla vaxtaşırı söhbət aparmalı, valideynlərlə görüşməli, uşağın evdə yaşadığı problemdən də xəbərdar olmalıdır. Bizdə isə məktəblərdə psixoloqların hansı uşağın psixoloji durumunun hansı vəziyyətdə olduğundan xəbəri belə yoxdur".**

*Günel CƏLİLOVA*

№ 78 (3976) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

2 MAY 2019-cu il

www.baki-xeber.com

# "Şərqin Eynşteyni" adlandırılan azərbaycanlı kimdir?

**"The Telegraph" qəzeti "Creators Synectics" beynəlxalq şirkətinin çağdaş elm, siyasət, incəsənət dünyasının 100 dahisinin siyahısını tərtib edib. Siyahıda amerikalı, ingilis, avropalı alimlərin adları da yer alıb. 50-ci yerdən sonra Rusiyadan cəmi 3 nəfərin adına rast gəlmək olur.**

"Milli.Az" bildirir ki, Tim Berners-Li, Corc Soros, Kventin Tarantino, Bill Qeyts, Məhəmməd Əli kimi dünya şöhrətli şəxsiyyətlərin də adları qeyd olunan siyahının 14-cü sırasında müasir fizika eminin azərbaycanlı dahisi Əli Cavanın adına da rast gəlmək mümkündür. Əli Cavan kimdir? Dünya şöhrətli həmvətənimiz qaz (neon gel) lazerinin ixtiraçısıdır. Xatırladaq ki, qaz lazeri olmadan çağdaş telekommunikasiyanı təsəvvür etmək mümkün deyil. Rabitədəki bütün texnoloji quraşdırma, materialların işlənməsi, tibb və digər sahələrdəki informasiyanın saxlanması, ötürülməsi alimin kvant elektronikası sahəsindəki kəşfi nəticəsində çalışır. Əli Cavanı "Şərqin Eynşteyni", "lazerin atası" adlandırırlar. O, elm sahəsinin ən nüfuzlu "Albert Einstein World Medal of Science" mükafatına layiq görülüb. Əli Cavan Amerikanın məşhur fizikidir. 1926-cı ildə Tehranda azərbaycanlı ailəsində doğulub. 1948-ci ildə gələcəyin dahisi ABŞ-a köçür. 6 il sonra Əli fəlsəfə doktoru olur. 38 yaşında isə Massaçusets Texnologiya İnstitutunun professoru adına layiq görülür. 1959-cu ildə Əli Cavan "Physical Review Letters" jurnalında dərc olunan məqaləsində ilk davamlı qaz lazeri qurmağı təklif edir. Bununla kvant elektronikası qeyri-xətti spektroskopiya sahəsinin kəşfinə təkan verir. 1960-cı ildə peşəsinin digər biliciləri - Bennet və Errotla birgə ilk davamlı qaz lazerini hazırlayırlar. Əli dəfələrlə müsahibələrində vurğulayır ki, mən necə demişdimsə, elə də oldu. "1960-cı ilin fevralından etibarən komandamız konstruksiyanın üzərində işləməyə başladı. Dekabr ayında hazır olan lazer gözləntimizi yanıltmadı. İndiki kimi xatırlayıram, saata baxdım. 16:20-ni göstərirdi. Həmin gün güclü qar yağırdı. Milada qədər ilk davamlı qaz lazerini hazırlayıb bitirmək istəyirdik. Belə də oldu". 13 dekabr 1960-cı il lazer şüası vasitəsilə ilk telefon əlaqəsinin baş tutduğu tarix kimi düşdü. Qeyd edək ki, alim uşaqlığından və ailəsindən bəhs edərkən dəfələrlə vurğulayıb. Əli Cavan, həmçinin, deyir ki, 30-cu illərdə alimlər ilk davamlı lazerin yaradılmasına çox yaxın olublar. Belə ki, atomların işıq dalğalarını yaydığı müəyyən edilib. Əgər Cavan həmin vaxt uşaq olmasaydı, kəşfini də 30 il tez edərdi. 1966-cı ildə Əli Cavan kəsişmə effekti modulunun nəzəriyyəsini yaradır. Həmin effekt o vaxtlar sadəcə təxmin idi. 1969-cu ildə isə nəzəriyyə öz təsdiqini tapır, mod qovşağının təsiri müşahidə üçün hazır vəziyyətə gəldi. Əli Cavan 1970-ci ildə lazer spektroskopiyası çərçivəsində işıq sürətinin dəqiq ölçülməsi ilə məşğul olaraq iki üsul hazırlayır. Birincisi işıq dalğalarının mütləq tezliyinin, ikincisi isə qeyri-xətti flüoressensiyanın ölçülməsidir. Bu gün Əli Cavan Massaçusets Universitetinin professoru olmaqla yanaşı, ABŞ Elmlər Akademiyasının və Amerika Elmlər və İncəsənət Akademiyasının, həmçinin, "Triestsk" elmlərin inkişafı fondunun üzvüdür. "Albert Einstein World Medal of Science" mükafatından əlavə, Amerika Optik Şurasının "Fredric Ives" medalına layiq görülüb. Dahi azərbaycanlı 2016-cı il 12 sentyabrda Los-Ancelesdə dünyasını dəyişib.



## Dünyanın ən bahalı konfeti...

**Dünyanın ən bahalı konfeti satışa çıxarılıb. "Ölkə.az" bildirir ki, portuqaliyalı qənnadçı Daniel cəmi 1000 ədəd belə konfet hazırlayıb və bir ədədin qiyməti 10 min dollardır.**

Daniel uzun müddətdir qeyri-adi və təkrarolunmaz dada sahib konfet hazırlamaq istəyirdi. Qiymətin baha olmasının isə səbəbi var. Daniel konfeti hazırlayanda yeyilən qızıldan, zəfərandan, Madaqaskar vanilindən, ağ trüfeldən və bahalı olan digər inqredientlərdən istifadə edib. Artıq Danielin konfetləri "Ginnesin Rekordlar Kitabı"na daxil edilib.

## Beynindəki xərçəng şişlərindən qurtuldu

**İngiltərədə Heidi Spence adlı qadının beynində 25 ədəd xərçəng şişi tapılıb. Həkimlər ona 6 ay ömrünün qaldığını deyiblər.**

Lakin qadın onlarla razılaşmayıb, sağalmaq üçün yeni bir üsul tapıb. "Milli.Az" xəbər verir ki, qadının istifadə etdiyi üsul onun sağalmasına kömək edib. Bir il əvvəl ayağında uyuşmalar olan qadın həkimə müraciət edib. Müayinə zamanı beynində 25 şiş aşkarlanan qadın xəstəliyə tabe olmayıb. Beyni ilə yanaşı, ağ ciyərində, sümüklərində şiş aşkarlanan qadın onun üçün yararlı olacağını müəyyən etmək üçün xərçəng müalicə mərkəzlərinin birində bir test etdirib. Həmin testlə 45 yaşlı qadının 5 geninin mutasiyaya məruz qaldığı müəyyən edilib. Bunlardan ikisinin müalicəsi mümkün olub. Üçaylıq müalicədən sonra beynindəki şiş sağalıb, sümük və ağ ciyərindəki şiş isə kiçilib.

## Elan

Şəki rayonu, Baş Göynük kənd sakini Babayev Sabir Həbillah oğlunun adına verilmiş 4700.12 kv.m. və 5085.8 kv.m. torpaq sahəsinin planı və ölçüsü sənədi itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Böyük Dəhnə kənd sakini Əbdürəhimov Eldar Ənvər oğlunun və ailə üzvlərinin adına verilmiş JN: 141 saylı torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Sabunçu rayonu, Zabrat qəsəbəsi, Məmmədyarov 12 a ünvanında yaşayan Əliyeva Ümbülbanu Fərrux qızına məxsus evin çıxarışı itdiyi üçün etibarsız sayılır.

Eminov Natiq Nadir oğlunun adına, Bakı şəhəri, Görədil qəsəbəsindəki bağ sahəsinin 02.03.2007-ci il tarixli, 826 nömrəli sənədi itdiyi üçün etibarsız sayılır.

Məmmədova Zəkiyə Adil qızının adına, Bakı şəhəri, Görədil qəsəbəsindəki 04.05.2005-ci il tarixli, 34828 saylı müqaviləyə əsasən 0.12 ha torpaq sahəsinin, 857 F nömrəli bağ sahəsinin sənədi itdiyi üçün etibarsız sayılır.

Əsədova Laçın Xudabaxış qızının adına, Bakı şəhəri, Yasamal rayonu, Hüseyin Cavid prospekti, 528-ci məhəllədə yerləşən qeyri-yaşayış sahəsinin çıxarışı itdiyi üçün etibarsız sayılır.





**Qoç** - Dəyər verdiyiniz insanla münasibətləri kəskinləşdirməyin. Səbrli olun, sizi maraqlandıran prosesi sürətləndirmək üçün müdaxilələrdən çəkinin. Problemlərin həllinin maraqlı yolu var.



**Buğa** - İllüziyalara aldanmayın, arzular aləmindən ayrılın. Praqmat və realist olun. Yaxın ətrafınızdakı insanlarla razılığa yalnız praktiki müstəvidə nail ola bilərsiniz. Cari tələbat çərçivəsindən kənara çıxmayın.



**Əkizlər** - Günün ilk yarısında formalaşan şəraitdə mənasız söhbətlərə, boş müzakirələrə qatılmayın. Faktları təxminlərdən və ehtimallardan üstün tutun. Praktika nəzəriyyədən daha əfzəldir.



**Xərçəng** - Yaranmış situasiyaya uyğun hərəkət edin. Gün ərzində qəfil, gözlənilməz hadisələr baş verə bilər. Qonşular, həmkarlar, qohumlar arasında bir və ya bir neçə şəxsin qəribə davranışları istisna deyil.



**Şir** - Yaşam tonusunuzun səviyyəsinin müvəqqəti olaraq aşağı düşməsi ilə barışın. Emosional durumunuz qarşınıza qoyduğunuz məqsədə çatmağa maneələr yarada bilər. Maliyyə problemlərinin həllinə, mübadiləyə həddən-ziyadə vaxt ayırmayın.



**Qız** - Günün ilk yarısında davranışınıza fikir verin. Xırdalıqları nəzərdən qaçırmayın. Xasiyyətinizin ən pis yönlərini nümayiş etdirərək sizdən narazı insanların sayını artırmayın. Çatışmazlıqları aradan qaldırın.



**Tərəzi** - Günün ilk yarısında yaranan problemləri həll etmək üçün səbrli olmalısınız. İrəliləmək üçün fəaliyyətin praktiki yönünə önəm verin. Kiçik tapşırıqları yerinə yetirməklə də uğur qazana bilərsiniz.



**Əqrəb** - Günün ilk yarısı məhsuldar olacaq. İndi gördüyünüz işlərin sonuclarından az sonra perspektivdə yararlana bilərsiniz. İstənilən təklifi tələsmədən, soyuqqanlı şəkildə nəzərdən keçirin.



**Oxatan** - Maraqlı zamandır. Bütün şanslardan yararlana bilməsəniz də, əlverişli imkanlar arasında daha real olanı seçin. Fəaliyyət müstəvisini genişləndirə bilərsiniz. Ünsiyyət istədiyiniz kimi alınmasa da, sönük deyil.



**Oğlaq** - Günün ilk yarısı əlverişlidir. Tətbiqi problemlərin həllinə üstünlük verin. Çətinliklərdən çıxış yolunu arayarkən təcrübənizdən yararlanın. Yeni situasiyalarda intuisiyanız dadınıza çatacaq.



**Dolça** - Diqqətli olun, təfərrüatlara və ilk baxışdan mənasız təsir bağışlayan detallara fikir verin. İşinizi yarımçıq qoymayın. Obyektiv zərurəti və bununla bağlı nüansları nəzərə alın. Bütün işləri özünüz görsəniz də olar.



**Balıqlar** - Yeni tərəfdaşlar və şəriklərin seçilməsi, genişmiqyaslı layihənin müzakirəsi üçün əlverişli zaman deyil. Potensial tərəfdaşları sınayın. Seçim yoxdursa, danışıqlar apardığınız insanı diqqətlə müşahidə edin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## İnsanın düşüncələrini oxumaq mümkün olacaq



Kaliforniya universitetinin alimləri yeni açıqlama ilə çıxış ediblər. Alimlər süni intellektdən istifadə edərək insan beynindən gələn siqnalları oxumağı bacarıblar. Biz bu siqnalları düşüncə adlandırırıq. Ehtimal edilir ki, bu texnologiyadan istifadə etməklə lal insanlar asanlıqla danışa biləcəklər. Məsələ burasındadır ki, biz hətta düşünəndə də beynimizin müəyyən hissəsi aktivləşir. Bu hissə isə dodaqların hərəkətinə cavab verən hissədir. Xüsusi qurğu isə bu aktivliyi qeydə alır və sintezləşdirilmiş səsə çevirir. Texnologiyanın hazırlanmasında könüllülər iştirak edib. Onların başına xüsusi elektrodlar qoşublar. Könüllülər uşaq kitablarından müəyyən hissələri beyinlərində təkrar ediblər. İki süni neyron şəbəkəsi isə alınan siqnalları səsə çevirib.

*Hazırladı: Ramil QULİYEV*

**Baş redaktor:** *Aydın Quliyev*

**Baş redaktorun müavini:** *Tahir Tağıyev*

**Redaksiyanın ünvanı:** *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

**Tel-faks:** *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.